## AZƏRBAYCANIN RAYONLARINDA YETİŞDİRİLƏN MƏHSULLARIN İXRAC COĞRAFİYASI GENİŞLƏNİR

Azərbaycanın yeni şəraitdə iqtisadi inkişafla bağlı qarşıya qoyduğu əsas hədəflərdən biri aqrar sektorda istehsal həcmlərinin artırılması və bu əsasda ixrac imkanlarının genişləndirilməsi ilə bağlıdır. Ölkəmizin qarşıya belə bir məqsəd qoyması isə heç də təsadüfi deyil. Məlum olduğu kimi, respublikamızda aqrar sektorda böyük ixrac potensialı var. Davamlı olaraq hərtərəfli dövlət dəstəyi göstərilən fermerlərin fəallığı sayəsində regionlardan kənd təsərrüfatı məhsullarının ixrac həcmlərini genişləndirməklə respublikamız...




Bax səh. 8

## XİN AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN MOSKVADA KEÇİRİLƏN GÖRÜŞÜNƏ DAİR MƏLUMAT YAYIB

Aprelin 15-də Moskva şəhərində Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib. Görüşdə, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin...



Bax səh. 5



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 16 aprel 2019-cu il, çərşənbə axşamı / № 067 (5442). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Son bir ildə Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib



*Prezident İlham Əliyev: Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev akademik Məmməd Cəfər Cəfərovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

### Bakıda Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işə başlayıb

Aprelin 15-də Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə...




Bax səh. 3-4

### Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Bakı Konfransı qabaqcıl təcrübənin öyrənilməsi baxımından mühüm platformadır

Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda (IDEC) 115 ölkədən 432 nümayəndə iştirak edir. Tədbirə Azərbaycan tərəfindən 100-dən çox nümayəndə qatılıb. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində mötəbər platforma olan bu konfransda dünya təcrübəsini bölüşmək, informasiya mübadiləsi aparmaq, bu mübarizədə istifadə olunan qabaqcıl texnologiyalarla tanışlıq imkanı yaradılır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov...

Bax səh. 4

# Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın işıqlı xatirəsi ürəklərdə əbədi yaşayır



Aprelin 15-i görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anma günüdür.

Otuz dörd il əvvəl ılıq bir bahar günündə dünyasını dəyişmiş, Azərbaycan qadınlarına məxsus ləyaqətli, şərəfli bir ömür yaşamış Zərifə xanımın ürəklərdə əbədi yaşayan işıqlı xatirəsi qədirbilən xalqımız tərəfindən hər il anılır.

AZƏRTAC görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətindən bəzi məqamları təqdim edir.

Qədim Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açmış Zərifə Əliyeva çox zəngin və mənalı ömür yolu keçib. O, görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Atasının ömür yolu onun üçün əsl həyat məktəbi olub.

Zərifə xanım Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, Ulu Öndərə mənəvi dayaq, arxa olub.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Tibb Universitetini bitirəndən sonra Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsil alıb. O, 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Həkimləri Təkmilləşdirmə İnstitutunda elmi işçi kimi əmək fəaliyyətinə başlayıb və bütün ömrünü oftalmologiyaya həsr edib. 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

Bütün həyatı boyu ona pənah gətirənlərin gözlərinə şəfa verən Zərifə Əliyevanın alim kimi xidmətlərində bir məqam diqqəti xüsusilə cəlb edir. O, malyariya və traxomaya qarşı fədakarlıqla mübarizə aparan atası Əziz Əliyevin yolunu uğurla davam etdirib, oftalmologiya elminə çox böyük töhfələr verib. Zərifə Əliyeva gözün zədələnməsinin öyrənilməsi və profilaktikası sahəsindəki bir sıra orijinal kəşflərinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatına layiq görülüb. O, keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim idi.

Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olub, "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Amma bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin anasıdır.

Müasirlərinin dediyi kimi, Zərifə xanım qeyri-adi bir ana idi və övladlarına olan münasibət də xüsusi idi. Belə münasibətin bənzərini tapmaq çətindir. O, uşaqları sanki Ulu Tanrı tərəfindən bəxş olunan bir nur payı kimi qəbul edirdi. O, özünə rəhm etmirdi, analıq borcunu yerinə yetirməkdə də özünə rəhmi gəlmirdi. Hərdən analar uşaqlarına olan məhəbbətdə elə yüksək dərəcələrə çatırlar ki, bununla hamını heyrətə gətirirlər. Zərifə xanım belə analardan idi.

### Naxçıvanda müşavirə keçirilib

Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirə keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin...



Bax səh. 5

### YAP Qax rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib

Aprelin 13-də Yeni Azərbaycan Partiyası (YAP) Qax rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. Tədbir iştirakçıları və qonaqlar öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər. Qax şəhər Mədəniyyət evində keçirilən konfransda Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, millət vəkili Azər Kərimli, Qax rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev iştirak ediblər. Dövlət himninin səsləndirilməsindən sonra konfransı giriş sözü ilə açan YAP Qax rayon təşkilatının sədri Nizami Əhmədov ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti, gənclər üçün yaradılan əlverişli şərait barədə danışıb...

Bax səh. 6

# Son bir ildə Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib

***Prezident İlham Əliyev:** Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir*

*Bu, bir həqiqətdir ki, heç bir ölkə dünyadan təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Bu baxımdan, Azərbaycanın regional və qlobal müstəvidə ardıcıllıqla həyata keçirdiyi siyasət təqdirəlayiqdir. Belə ki, ölkəmiz özünün geniş imkanlarını təqdim edərək, həmçinin xalqımızın xoş məramına sadiq qalaraq daim regional və qlobal əməkdaşlığın dərinləşməsinə, təhlükəsizliyin və qarşılıqlı etimad mühitinin möhkəmlənməsinə mühüm töhfəsini verir.*

*Öz növbəsində ölkəmizin milli maraqları əsas götürməklə reallaşdırdığı səmərəli xarici siyasət respublikamıza beynəlxalq miqyasda böyük nüfuz qazandırıb. Qısa müstəqillik tarixində Azərbaycanın 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi son dərəcə qürurverici haldır. Prezident İlham Əliyev 18 aprel 2018-ci il tarixində keçirilən andiçmə mərasimindəki nitqində ölkəmizin beynəlxalq nüfuzunun artmasından məmnunluğunu ifadə edərək vurğulayıb: **“Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir”.***



Eyni zamanda, respublikamız 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərindən sonra da özünün milli maraqlar üzərində qurulan xarici siyasətini uğurla davam etdirib. Bunun nəticəsi olaraq son bir ildə Azərbaycanın beynəlxalq mövqeyi daha da möhkəmlənib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində respublikamızın son bir ildə diplomatik sahədə qazandığı uğurlara xüsusi diqqət çəkib. **“Həmçinin hesab edirəm ki, keçən il xarici siyasət sahəsində də uğurlu olubdur. Mən keçən il xarici ölkələrə 16 səfər etmişəm və Azərbaycana 16 dövlət və hökumət başçısı səfər edib. Bu, bir daha onu göstərir ki, bizim xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır”**, - deyə dövlət başçımız vurğulayıb.

## RESPUBLİKAMIZIN ERMƏNİSTAN İSTİSNA OLMAQLA BÜTÜN QONŞU ÖLKƏLƏRLƏ ƏLAQƏLƏRİNİN YÜKSƏK SƏVİYYƏYƏ QALXMASI BÖYÜK ÖNƏM DAŞIYIR

Qonşu ölkələrlə əlaqələrin qarşılıqlı maraqlar və bir-birinin ərazi bütövlüyünə, suverenliyinə hörmət kimi fundamental prinsiplər üzərində qurulması hər bir dövlət üçün müstəsna əhəmiyyət daşıyır. Biz qonşulara qarşı aqressiya nümayiş etdirən, işğalçılıq mövqeyi tutan Ermənistanın timsalında düşünülməmiş siyasətin acı nəticələrə gətirib çıxardığını aydın şəkildə görürük. Bu ölkə qonşu dövlətlərə, o cümlədən də Azərbaycana qarşı sərgilədiyi əsassız ərazi iddialarının və işğalçılıq siyasətinin girovuna çevrilərək regionda reallaşdırılan bütün irimiqyaslı iqtisadi layihələrdən kənarda qalıb, dalan ölkəyə çevrilib. Azərbaycan isə davamlı şəkildə regional siyasi və iqtisadi əməkdaşlıq platformalarının yaradılmasına və onların funksionallığının artırılmasına böyük səy göstərir. Belə xoşməramlı siyasətin nəticəsidir ki, respublikamız işğalçı Ermənistandan başqa bütün qonşu dövlətlərlə çox müsbət əlaqələr qurmağa nail olub. 2018-ci il 11 aprel tarixində keçirilən seçkilərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin qonşu dövlətlərə və qonşu dövlətlərin yüksək səviyyəli rəsmilərinin respublikamıza səfərləri baş tutub. Bu səfərlər zamanı keçirilən görüşlərdə regional əməkdaşlıq və təhlükəsizlik məsələləri geniş müzakirə olunub, çoxsaylı sənədlər imzalanıb. Prezident İlham Əliyev Azərbaycanın region dövlətləri ilə münasibətlərinin yüksək səviyyədə olduğuna diqqət çəkərək deyib: **“Biz, ilk növbədə, qonşularımızla əlaqələrimizi daha yüksək pilləyə qaldıra bilmişik. Keçən il qonşu ölkələrin dövlət və hökumət başçıları ilə mənim çoxsaylı görüşlərim olub və bu görüşlərdə praktiki məsələlər həll edilib. Hər bir ölkə üçün onun qonşuları ilə yaxşı münasibətlərin qurulması çox vacib amildir. Azərbaycan o ölkələrdəndir ki, Ermənistandan başqa bütün qonşularımızla çox düşünülmüş siyasət apararaq gözəl münasibətləri qura bilib və ölkəmiz bu münasibətlərdən faydalanır”.**

Qeyd edək ki, qonşu dövlətlər olan Azərbaycan və Gürcüstanı yalnız coğrafi sərhədlər birləşdirmir - onlar həm də oxşar tarixə malik ölkələrdir. Çox doğru olaraq bu iki xalqı həm dar, həm də xoş günlərin dostları kimi səciyyələndirirlər. Onlar xoş günlərin sevincini bölüşdükləri kimi, həm də tarixin çətin məqamlarında bir-birilərinə kömək əli uzadıblar.

Müstəqillik illərində də oxşar problemlə - ərazi bütövlüyünün pozulması və işğalın uzun illər davam etməsi faktı ilə üz-üzə qalan Azərbaycan və Gürcüstan yaşadıqları çətinliklərə baxmayaraq, inkişaf ediblər və dövlət quruculuğu yolunda böyük uğurlara nail olublar. Bu gün Azərbaycanla Gürcüstan arasında münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir. Bu əlaqələr həm siyasi məsələləri, həm iqtisadi sektoru, həm də humanitar-mədəni sahələri əhatə edir və yaxşı nəticələr verir. Bütövlükdə, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. 2019-cu ilin fevral ayında qonşu Gürcüstan Respublikasının yeni seçilmiş Prezidenti xanım Salome Zurabişvilinin region dövlətləri arasında ilk xarici səfərini məhz Azərbaycana etməsi deyilənləri bir daha təsdiqləyir.

Türkiyə və Azərbaycan dünyada bir-birinə ən yaxın olan dost, qardaş ölkələrdir. Yer üzündə iki qardaş xalqın və ölkənin dostluğuna xələl gətirə biləcək güc, qüvvə yoxdur. Türkiyə Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətdir. Qardaş Türkiyə Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə cavab olaraq bu ölkə ilə bütün siyasi-iqtisadi əlaqələri dayandırıb, eyni zamanda, 1993-cü ildən etibarən bu ölkə ilə sərhədlərini bağlayıb. Öz növbəsində Azərbaycan da ermənilərin Türkiyəyə qarşı irəli sürdükləri ərazi və “soyqırımı” iddialarına layiqli cavab verilməsində daim qardaş ölkənin yanındadır.

Türkiyə ilə Azərbaycanı, eyni zamanda, müxtəlif layihələrdə fəal təmsilçilik, ortaq maraqlar birləşdirir. 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi çox əlamətdar hadisədir. Cənub Qaz Dəhlizinin mühüm seqmenti olan TANAP-ın istifadəyə verilməsi Türkiyə-Azərbaycan dostluğunun zirvəsi hesab olunur. 2018-ci il oktyabrın 19-da Türkiyənin İzmir şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə “Star” neft emalı zavodunun açılış mərasimi keçirilib. 6,3 milyard dollar vəsait hesabına tikilən bu müəssisənin investoru qismində Azərbaycanın SOCAR şirkəti çıxış edib. “Star” neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Qeyd etmək yerinə düşər ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir.

*“Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır”*

Azərbaycanla İran arasında münasibətlərin möhkəmlənməsi regional əməkdaşlığın dərinləşməsinə yaxşı nümunədir. Son bir ildə Prezident İlham Əliyevin İran Prezidenti və bu ölkənin digər yüksək səviyyəli rəsmiləri ilə keçirdiyi görüşlərdə ilk növbədə regional təhlükəsizlik, iqtisadi bloka aid məsələlər müzakirə olunub, bölgədə və daha geniş coğrafiyada sabitliyin təmin olunmasında, terrorizm, separatizm və digər bu kimi bəşəriyyəti təhdid edən hallarla mübarizədə birgə əməkdaşlığın inkişaf etdirilməsinin və səylərin gücləndirilməsinin zəruriliyi vurğulanıb.

*“Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir”*

Son illərdə Azərbaycanla İran arasında ticarət dövriyyəsinin və investisiya qoyuluşunun artması məmnunluq doğurur. Azərbaycanın Pirallahı Sənaye Parkında İranın “TPİCO Holdinq” Şirkətlər Qrupunun iştirakı ilə “Caspian Pharmed” əczaçılıq zavodunun inşası aparılır. Azərbaycan və İran şirkətlərinin müştərək layihəsi əsasında Neftçala Sənaye Məhəlləsində avtomobil zavodu yaradılıb və ötən il müəssisədə istehsala başlanılıb.

Azərbaycan-Rusiya əlaqələri çoxşaxəli səciyyə daşıyır. Buraya həm siyasi, həm də iqtisadi və humanitar sferalar daxildir. Həyatın elə bir sahəsi yoxdur ki, Azərbaycanla Rusiya sıx əməkdaşlıq etməsinlər. Xüsusi olaraq vurğulamaq lazımdır ki, iki ölkə arasında ikitərəfli iqtisadi əlaqələr çox uğurla inkişaf edir. Hazırda Azərbaycan bazarında təxminən 700 birgə müəssisə var ki, onlardan da üçdəbiri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir.

Azərbaycan da qonşu ölkədə investisiya qoyuluşunu getdikcə artırır. Hazırda respublikamız Rusiyada müxtəlif investisiya layihələri reallaşdırır. İndiyədək Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayələr yönəldilib. Azərbaycanlı sahibkarların investisiyaları hesabına Yessentukidə sanator-kurort mərkəzi inşa edilib. Hazırda Azərbaycandan yönəldilən sərmayələr hesabına Jeleznovodskda mehmanxana kompleksi ucaldılır. Belə misalların sayı kifayət qədər çoxdur.

## SON BİR İLDƏ AZƏRBAYCANLA AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏRİN DAHA DA MÖHKƏMLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ ÇOX MÜHÜM ADDIMLAR ATILIB

Ardıcıllıqla reallaşdırdığı məqsədyönlü siyasət sayəsində Cənubi Qafqaz coğrafiyasının lider dövləti səviyyəsinə yüksələn Azərbaycanın Avropa ölkələri üçün də önəmi getdikcə artır. 2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin ayrı-ayrı Avropa ölkələrinə səfərləri böyük uğurla keçib. Eyni zamanda, Avropanın bir sıra nüfuzlu dövlətlərinin dövlət və hökumət başçıları da respublikamıza səfərlərə gəliblər. Bu səfərlər çərçivəsində keçirilən görüşlərdə Azərbaycanın Avropa İttifaqı məkanı üçün önəmi və qlobal əməkdaşlığın dərinləşməsinə verdiyi töhfələr yüksək dəyərləndirilib.

Avropa İttifaqı ilə Azərbaycan perspektivdə münasibətlərin daha da dərinləşməsinə siyasi iradə nümayiş etdirirlər. Bunu tərəflərin yeni Saziş üzərində işləməsi bir daha təsdiqləyir. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında “Tərəfdaşlıq prioritetləri” sənədinin paraflanması əməkdaşlığın gələcək inkişafı üçün çox önəmlidir. Bəhs olunan sənədin paraflanması Azərbaycanın Avropa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bir daha təsdiqləyir. Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində sənədin önəminə diqqət çəkərək bildirib: **“Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var”.**

Respublikamız, eyni zamanda, NATO-nun etibarlı tərəfdaşıdır. Azərbaycan əsgərləri 2002-ci ildən NATO qüvvələri tərkibində Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirak edirlər. Artıq Azərbaycan Əfqanıstandakı hərbi kontingentini 120 hərbçiyə qədər artırıb. Qeyd edək ki, NATO Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirir. Yeri gəlmişkən, NATO-nun ötən il keçirilən Zirvə görüşündə qəbul edilmiş yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyünə dəstək və hörmət əksini tapıb.

## AZƏRBAYCAN İSLAM ALƏMİNDƏ HƏMRƏYLİYİN MÖHKƏMLƏNMƏSİNƏ BÖYÜK SƏY GÖSTƏRİR

*“İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir”*

Xalqımız həmişə öz tarixi keçmişinə, mənəvi sərvətlərinə hörmətlə yanaşıb. Müstəqillik dövründə İslam aləmi ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edib. Ölkəmiz bütün sahələrdə İslam dünyası ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə xüsusi önəm verir. Əlamətdar haldır ki, müstəqil Azərbaycanın ilk diplomatik missiyaları məhz müsəlman ölkələrində fəaliyyətə başlayıb, dövlətimiz qısa zamanda bütün müsəlman dünyasını birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvünə çevrilib. Azərbaycan İslam həmrəyliyinin möhkəmlənməsinə töhfə verən İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi, İƏT-ə Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası kimi yeni qurumların yaradılmasının təşəbbüskarı kimi çıxış edib.

Azərbaycan, həmçinin beynəlxalq miqyasda İslam həmrəyliyinin möhkəmlənməsinə sanballı töhfələr verir. Respublikamızda 2017-ci ildə elan olunan “İslam Həmrəyliyi İli” çərçivəsində çoxsaylı tədbirlər keçirildi. Eləcə də 2017-ci ilin birinci yarısında Bakıda əksər İslam ölkələrinin təmsilçilərinin iştirakı ilə keçirilən IV İslam Həmrəyliyi Oyunları ölkələr arasında əsl dostluq və qardaşlıq bayramına çevrildi.

Öz növbəsində İslam ölkələri beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın həyata keçirdiyi siyasətə, ələlxüsus da Dağlıq Qarabağ münaqişəsinin ədalət prinsipi və beynəlxalq hüquq normaları çərçivəsində həllinə hərtərəfli dəstək nümayiş etdirirlər. İslam Əməkdaşlıq Təşkilatı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyini həmçinin 2018-ci ildə Banqladeşin Dəkkə şəhərində keçirilən təşkilata üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının 45-ci sessiyasında ifadə edib. Sessiyada qəbul edilmiş Dəkkə Bəyanatının 18-ci bəndində İƏT-ə üzv ölkələrdə mövcud olan münaqişə və böhranların BMT və İƏT-in nizamnamələrində təsbit olunmuş beynəlxalq hüquq normaları əsasında həlli, onların doğurduğu dağıdıcı təsirlərin aradan qaldırılması zərurəti qeyd edilib, bu xüsusda Azərbaycanla qəti həmrəylik bir daha ifadə olunub. Prezident İlham Əliyev respublikamızın bütün İslam dünyası ilə münasibətlərinin yüksələn xətlə inkişaf etməsindən məmnunluğunu bildirərək deyib: **“Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir”.**

## 2018-Cİ İLDƏ İMZALANAN KONVENSİYADA AZƏRBAYCANIN XƏZƏRİN HÜQUQİ STATUSU İLƏ BAĞLI MÜDAFİƏ ETDİYİ MÖVQE TAM OLARAQ ÖZ ƏKSİNİ TAPIB

Azərbaycan Xəzər hövzəsi regionunun qarşılıqlı əməkdaşlıq məkanına çevrilməsinə böyük səy göstərir. Məlum olduğu kimi, 2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması ilə müəyyən məsələlərdə sahil dövlətləri arasında uzun illərdən bəri davam edən mübahisələrə son qoyulub. Konvensiya fundamental normativ sənəd kimi Xəzər dənizinin ümumi hüquqi rejimini müəyyən edir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin bəhs olunan iclasındakı nitqində sənəddə Azərbaycanın mövqeyinin tam olaraq nəzərə alındığını diqqətə çatdıraraq vurğulayıb: **“Xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi idi. İmzalanmış Konvensiya bu məsələnin həlli üçün çox böyük əhəmiyyət daşıyır. Şadıq ki, bizim uzun illər ərzində müdafiə etdiyimiz mövqe bu Konvensiyada tam öz əksini tapmışdır. Bu sənədin imzalanması bir daha göstərir ki, Xəzər dənizi sülh, əməkdaşlıq, təhlükəsizlik dənizidir”.**

Qeyd edək ki, bəhs olunan sənəd üzərində iş 1996-cı ildən aparılıb. 2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında “Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumi istifadəsi” haqqında üçtərəfli saziş imzalanıb və tərəflər, Xəzərin dibinin bölünməsinə dair yekun razılığa imza atıblar. 2010-cu ildə Bakıda keçirilən III Zirvə toplantısı ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xüsusi töhfə verib. Həmin toplantıda regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanması baxımından mühüm əhəmiyyət daşıyan “Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb. Bakı sammitində imzalanan Sazişdə ilk dəfə konseptual olaraq suverenlik və balıqçılıq zonaları yüksək səviyyədə razılaşdırılıb.

**Mübariz ABDULLAYEV**

# Bakıda Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işə başlayıb

Aprelin 15-də Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin fəal iştirakı ilə təşkil edilən, "Qlobal tərəfdaşlıqların səfərbər edilməsi" mövzusuna həsr olunan Bakı konfransının məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu bəşəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaqdır.







Dünyanın 115 ölkəsindən 432 nümayəndənin qatıldığı beynəlxalq konfrans narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından mütəxəssislərin bəhrələnməsinə şərait yaradacaq.

Konfransın açılış mərasimində əvvəlcə fəxri qarovul dəstəsi tərəfindən Amerika Birləşmiş Ştatlarının və Azərbaycan Respublikasının dövlət bayraqları salona gətirilib.

Sonra narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə həlak olan şəxslərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra ABŞ-ın və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov beynəlxalq konfransda çıxış edib: **"Hörmətli konfrans iştirakçıları.**

**Dəyərli qonaqlar.**

**İlk növbədə, hər birinizi Bakıda salamlayır, Azərbaycana "Xoş gəlmisiniz" deyirəm.**

**Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfrans dünyada narkotiklərə qarşı mübarizə sahəsində təşkil edilən ən mötəbər tədbirlərdən biridir. Əminəm ki, bu konfrans narkotiklərin qanunsuz dövriyyəsi və çirkli pulların yuyulması ilə mübarizədə beynəlxalq təcrübənin öyrənilməsinə, müvafiq sahədə əməkdaşlığın daha da güclənməsinə öz töhfəsini verəcəkdir. Konfrans, həmçinin digər dövlətlərlə səmərəli təcrübə mübadiləsinə imkan yaradacaqdır.**

**Beynəlxalq səviyyədə narkotiklərə qarşı mübarizə sahəsində ixtisaslaşan qurumları və ekspertləri bir araya gətirən qlobal əhəmiyyətli bu tədbirin Bakıda keçirilməsi Azərbaycan Respublikasının narkotiklərə qarşı mübarizədə beynəlxalq əməkdaşlığına verilən qiymətdir. Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən işçi qrupu yaradılıb və Tədbirlər Planı təsdiq edilib.**

**Son illər Azərbaycan bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bu sırada BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu, Dünya Dini Liderlərinin Sammitini, Qlobal Bakı Forumunu, Bakı Beynəlxalq Humanitar Forumunu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantılarını, "Avroviziya" mahnı müsabiqəsini, I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını və digər tədbirləri qeyd etmək olar.**

**Bu ənənənin davamı olaraq Azərbaycan cari ildə də bir sıra mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edəcəkdir. Bir neçə gündən sonra Formula 1 Bakı Qran-Prisi başlayır. Bundan başqa, 2019-2022-ci illərdə Azərbaycanın sədrlik edəcəyi Qoşulmama Hərəkatının Zirvə Görüşü, Dünya dini liderlərinin II Bakı sammiti, Avropa Gənclər Olimpiya Festivalı, futbol üzrə UEFA Avropa Liqasının final oyunu da Bakıda keçiriləcəkdir.**

**Yenidən müstəqillik qazanmasının 28-ci ilini yaşayan Azərbaycan Respublikasının çoxşaxəli xarici siyasəti bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan həm ikitərəfli, həm də çoxtərəfli formatda sülhə və təhlükəsizliyə töhfə vermək üçün müxtəlif beynəlxalq platformalarda fəal iştirak edir.**

**Azərbaycan artıq beynəlxalq aləmdə özünü etibarlı tərəfdaş kimi təsdiq etmişdir. Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu transmilli enerji, nəqliyyat-logistika layihələri ölkəmizi qlobal və regional miqyasda mühüm tərəfdaşa çevirmişdir. Respublikamız Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən enerji və nəqliyyat dəhlizlərində aparıcı rola malikdir. Tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və tikilməkdə olan TAP boru kəmərləri neft və qaz resurslarını Avropaya nəql etməklə böyük bir regionun enerji xəritəsini tamamilə dəyişmişdir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.**

**Azərbaycan Amerika Birləşmiş Ştatları ilə bir çox sahələrdə, o cümlədən təhlükəsizlik, qlobal risk və təhdidlərə qarşı mübarizə sahələrində qarşılıqlı faydalı əməkdaşlıq edir. ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq antiterror koalisiyasına qoşulan ilk dövlətlərdən biri Azərbaycan olmuşdur. Azərbaycan və ABŞ regional və qlobal səviyyədə terrorizmlə, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə birgə fəaliyyət göstərirlər.**

**Hörmətli konfrans iştirakçıları!**

**Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanı ciddi narahat edən problemlərdən biridir. Əfsuslar olsun ki, narkomaniya bu gün dünyanın bir çox ölkə və dövlətlərində dəhşətli bəlaya çevrilməkdədir. Bu bəla həm narkotik istifadəçisinin müxtəlif cinayətlər törətməsinə səbəb olur, həm də cəmiyyətin mənəvi və intellektual potensialının aşınmasına, genefondun tənəzzülünə və digər mənfi hallara gətirib çıxarır. Narkotiklərin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə əsas təhdidlərdən biri hesab edilir.**

**Müstəqilliyimizin ilk illərindən başlayaraq Ümummilli Liderimiz Heydər Əliyev cəmiyyətin sağlam inkişafının vacibliyini vurğulayaraq demişdir: "Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizəsidir".**

**Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi irimiqyaslı tədbirlərin icrası nəticəsində Azərbaycan dünya ölkələri arasında özünəməxsus yer tutmuşdur.**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkomaniyanın dəf edilməsində dövlət və hüquq-mühafizə orqanlarından konkret nəticələr tələb etməsi bu ümumbəşəri fəlakətin ölkəmizdə yayılması təhlükəsinə Azərbaycanın qətiyyətli mövqeyini əks etdirir.**

**Respublikamızda sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması siyasəti narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni prioritet vəzifə kimi müəyyən etmişdir. Bu sahədə dövlət proqramları qəbul edilmiş, qanunvericilik bazası təkmilləşdirilmiş, institusional islahatlar həyata keçirilmiş, Azərbaycan müxtəlif beynəlxalq təşəbbüslərə qoşulmuşdur.**





**Hələ 1996-cı ildə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Prezident İlham Əliyev tərəfindən bu sahə üzrə son 15 ildə 13 fərman, 56 sərəncam imzalanmış, Milli Məclis tərəfindən 38 qanun qəbul edilmiş, bir neçə dövlət proqramı hazırlanmışdır. Azərbaycan narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur.**

**Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni vahid strategiya çərçivəsində həyata keçirmək Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Bu istiqamətdə təbliğat işlərinin əhatə dairəsi genişlənmiş, kompleks profilaktik tədbirlər görülmüşdür.**

**Beləliklə, ölkəmizdə narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün elmi və praktiki araşdırmaların aparılması və digər məsələlərin həlli istiqamətində sistemli fəaliyyət davam etdirilməkdədir.**

**Hörmətli konfrans iştirakçıları!**

**Bu gün Azərbaycan Respublikası Prezidentinin apardığı məqsədyönlü siyasət və həyata keçirdiyi dərin iqtisadi islahatlar nəticəsində ölkəmiz uğurla inkişaf edir. Ölkədə görülən işlərə beynəlxalq təşkilatlar, dünyanın aparıcı maliyyə qurumları tərəfindən yüksək qiymət verilir. Xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünyada 25-ci yerdədir.**

**Bizim bütün iqtisadi göstəricilərimiz müsbətdir. Onlardan bəzilərini diqqətinizə çatdırmaq istəyirəm. Keçən il Azərbaycanda iqtisadi artım 1,4 faiz olmuşdur. Qeyri-neft sektoru 1,8 faiz, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır.**

**Ölkə iqtisadiyyatına son 15 il ərzində 250 milyard dollardan artıq sərmayə qoyulmuş və Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artmışdır. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə endirilmiş, 2 milyona yaxın yeni iş yeri yaradılmışdır və hazırda işsizlik 5 faiz səviyyəsindədir.**

**Ötən il Azərbaycan üçüncü peykini orbitə çıxararaq, kosmik dövlət kimi öz mövqeyini daha da möhkəmləndirdi. 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuş, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı işə başlamışdır. Beləliklə, Azərbaycan, həm də dünyada logistik mərkəz və tranzit ölkə kimi tanınmışdır.**

**Son illər ərzində ölkədə infrastrukturun yaradılması ilə bağlı möhtəşəm işlər görülmüşdür. 2004-cü ildən bu günə qədər, ümumilikdə, 15 min kilometr avtomobil yolu çəkilmişdir. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə dünyada 30-cu, yol infrastrukturunun keyfiyyətinə görə isə 34-cü yerdədir.**

**Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında əldə olunmuş nailiyyətlər narkomaniyaya qarşı mübarizənin gücləndirilməsində mühüm rol oynamaqla yanaşı, bu sahədə hələ də mövcud olan nöqsanların aradan qaldırılması məqsədilə dövlət və hüquq-mühafizə orqanları qarşısında konkret tələblər qoyur.**

**Aparılmış islahatlar və həyata keçirilmiş tədbirlər nəticəsində son 5 ildə dövriyyədən 8 ton 354 kiloqram narkotik vasitə çıxarılmışdır. Ölkəmizdə ən müasir avadanlıqlarla təchiz olunmuş yeni narkoloji müalicə mərkəzi tikilib istifadəyə verilmişdir.**

**Beynəlxalq təcrübə nəzərə alınmaqla aidiyyəti orqanların mütəxəssislərinin iştirakı ilə ali və orta ixtisas təhsili müəssisələrində, internat məktəblərində, cəzaçəkmə müəssisələrində mütəmadi olaraq maarifləndirmə tədbirləri, sosial sorğular keçirilmiş, təcrübə mübadiləsi məqsədilə beynəlxalq təşkilatlarla birgə seminarlar, təlimlər təşkil edilmişdir.**

**Bir məqamı da vurğulamaq istərdim ki, dünya ictimaiyyəti hərbi münaqişə zonalarından narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadə olunmasından narahatlıq hissi keçirir. Azərbaycan da belə bir problemlə üzləşmişdir. Bildiyiniz kimi, artıq 25 ildən çoxdur ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ətraf 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal altındakı həmin ərazilərdən narkotik vasitələrin istehsalı və tranziti üçün istifadə edilməsi narkobiznesin və beynəlxalq terrorizmin genişlənməsinə münbit şərait yaradır.**

**Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizə cəlb edilən şirkətlərin iqtisadi fəaliyyəti işğalın davam etdirilməsinə, eləcə də narkotrafik və digər cinayət hallarına şərait yaradır. Bunların aradan qaldırması üçün işğal olunmuş ərazilərdə iqtisadi, maliyyə fəaliyyətlərinin, pul köçürmələrinin, sərmayə yatırılmasının qarşısı alınmalıdır. Azərbaycan tərəfindən sözügedən vəziyyətə nəzarət edilməsi məqsədilə müvafiq "qara siyahılar" tərtib olunur. Bununla bağlı, Azərbaycan işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətə cəlb olunan fiziki və hüquqi şəxslərin mənsub olduğu ölkələri müvafiq tədbirlər görməyə çağırır.**

**Hazırkı beynəlxalq konfransın bu cür qeyri-qanuni iqtisadi fəaliyyətin qarşısını almaq üçün aidiyyəti ölkələrə birbaşa müraciət etmək imkanı verir. Ümidvarıq ki, bu istiqamətdə görülən ciddi tədbirlər öz müsbət töhfəsini verəcəkdir.**

**Hörmətli konfrans iştirakçıları, əminəm ki, siz Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfransda səmərəli müzakirələr, qarşılıqlı hörmət prinsipləri əsasında açıq dialoq aparacaq, Azərbaycan paytaxtından bəşəri bəlaya qarşı mübarizənin gücləndirilməsi üçün dünyaya yeni mesajlar verəcəksiniz.**

**Diqqətinizə görə minnətdaram, konfransın işinə uğurlar arzulayıram".**

* * *

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov konfransın yüksək səviyyədə təşkili üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dair mühüm məsələlərin müzakirəsi, təcrübə və məlumat mübadiləsi baxımından Bakı konfransının önəmini vurğulayan Baş nazirin müavini qeyd edib ki, dünyada geniş iqtisadi inteqrasiyanın, ticarət və böyük həcmdə yükdaşımaların təşkili üçün nəqliyyat əlaqələrinin genişlənməsi narkotik vasitələrin yayılması ilə müşayiət olunur. Azərbaycan Prezidenti İlham Əliyevin son 15 ildə yürütdüyü uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatımızın tərəqqisi, böyük beynəlxalq layihələrin icrası, Bakı-Tbilisi-Qars dəmir yolunun, beynəlxalq dəniz limanının, avtomobil yollarının, hava limanlarının inşası və turizm sektorunun inkişafı ölkəmizə marağı artırıb. Bunun nəticəsində yük daşımalarının hədsiz dərəcədə artması beynəlxalq narkomafiyanın diqqətindən yayınmır və narkotik vasitələrin qanunsuz daşınması üçün cəhdlər göstərilir.

Ölkəmizdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərindən danışan Əli Həsənov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin 1996-cı il 26 avqust tarixli Fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yaradılması ilə bu problemlə mübarizə dövlət səviyyəsinə qaldırılıb. Azərbaycan beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək BMT-nin müvafiq konvensiyalarına qoşulub, ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılıb.

Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizəyə dair üç Dövlət Proqramının uğurla icra edildiyini vurğulayan Baş nazirin müavini dördüncü proqramın hazırlanmasının artıq başa çatdırıldığını qeyd edib. Bildirib ki, ölkəmizdə vətəndaşların sağlamlığının qorunması, asudə vaxtlarının səmərəli təşkili, faydalı işlə məşğul olmalarına şərait yaradılması məqsədilə genişmiqyaslı tədbirlər görülüb, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanılıb, mötəbər qurumlarla və bir sıra dövlətlərlə sıx münasibətlər qurulub.

Əli Həsənov deyib ki, müasir nəqliyyat infrastrukturuna malik olan Azərbaycan beynəlxalq yük daşımalarında Avropa ilə Asiya arasında mühüm tranzit ölkəyə çevrilib. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əsas problem də xaricdən ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən narkotiklərlə bağlıdır. Bu, ilk növbədə, Şərqdən Qərbə tranzit baxımından respublikanın əlverişli coğrafi mövqedə yerləşməsi ilə şərtlənir.

Son dövrlər narkotiklərin qanunsuz dövriyyəsinə qarşı daxili işlər, gömrük, sərhəd, təhlükəsizlik orqanları tərəfindən mübarizə işi xeyli gücləndirilib, müxtəlif marşrutlarla narkotiklərin qaçaqmalçılıq yolu ilə daşınması hallarının aşkarlanması üzrə qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilib, cinayətkarlardan külli miqdarda narkotik vasitə götürülüb.

Narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması üçün dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Səhiyyə Nazirliyi tərəfindən Bakıda Yeni Narkoloji Mərkəzin istifadəyə verildiyini vurğulayan Əli Həsənov diqqətə çatdırıb ki, uğurlu mübarizə tədbirləri çərçivəsində təkcə Dövlət Gömrük Komitəsi tərəfindən ötən il və bu ilin son üç ayında sərhəd-keçid məntəqələrindən 1 ton 714 kiloqram narkotik vasitə dövriyyədən çıxarılıb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin ölkəmizin sosial və təhlükəsizlik siyasətinin prioritetlərindən olduğunu vurğulayan Dövlət Komissiyasının sədri bildirib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi 27 ildir işğal altında saxlanılır, 1 milyondan artıq soydaşımız qaçqın və köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə, ATƏT-in və Avropa Şurasının müvafiq qərarlarına baxmayaraq, Ermənistan torpaqlarımızı bu gün də işğal altında saxlayır. İşğal nəticəsində Azərbaycanın İranla dövlət sərhədinin 132 kilometrlik hissəsi nəzarətsiz zonaya çevrilib. Bu fakt BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin 2010-cu il Dünya Narkotiklər Hesabatında da əksini tapıb. Həmin ərazilərdən Avropaya və digər ölkələrə güclü narkotik axını həyata keçirilir. İşğal olunmuş torpaqlarımızda ermənilər

davamı 4-cü səhifədə

# Bakıda Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans işə başlayıb

əvvəli 3-cü səhifədə

tərəfindən narkotik tərkibli bitkilərin becərilməsi, yeni növ narkotiklərin sintezi üzrə laboratoriyaların açılması, narkotiklərin istehsalı və tranzit bazasının yaradılması, onun satışından əldə edilən külli miqdarda gəlirin yeni silahların alınması, terrorçu qrupların yaradılması və onlara təlimlər keçirilərək digər münaqişə zonalarına istiqamətləndirilməsi təhlükənin miqyasını daha da artırır.

Dünyada 275 milyon insanın narkotik istifadəçisi olduğunu, narkosənayenin birillik dövriyyəsinin 400 milyard dollar təşkil etdiyini deyən Əli Həsənov qeyd edib ki, Dünya Səhiyyə Təşkilatının hesabatına görə, hər il narkoistifadədən ölənlərin sayı 450 minə çatıb. Bu, müasir dövrdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı daha səmərəli mübarizədə konvensiyalara, mübarizə üsullarına yenidən baxılmasının və ciddi islahatların reallaşdırılmasının zəruriliyini ortaya qoyur.

Baş nazirin müavini çıxışının sonunda Azərbaycan Prezidentinin bu problemlə bağlı müəyyənləşdirdiyi strategiyanın bundan sonra da uğurla reallaşdırılacağına, gənc nəslin sağlam və yüksək ideallar ruhunda tərbiyəsi, genefondumuzun qorunması istiqamətində ciddi və barışmaz tədbirlər görüləcəyinə əminliyini bildirib.

* * *

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin milli, regional və beynəlxalq səviyyələrdə cinayət növü kimi qəbul olunmasını, bu problemin həllinin beynəlxalq əməkdaşlıq tələb edən ümumi məsuliyyətə çevrildiyini deyən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev bildirib ki, bu baxımdan, beynəlxalq təşkilatların, dünya ölkələrinin aidiyyəti qurumlarının dəstəyi ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə əməkdaşlıq çərçivəsində mübarizə tədbirləri mühüm əhəmiyyət kəsb edir. Komitə sədri qeyd edib ki, bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ölkəmizin ayrı-ayrı dövlət strukturları, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri, təhsil və səhiyyə qurumları birgə mübarizə aparmaqla bu bəlanın qarşısının alınmasında uğurla fəaliyyət göstərir.



Səfər Mehdiyev diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncam, Fərman və normativ-hüquqi aktlarla ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin əsas strateji xətti müəyyənləşdirilib. **"Gömrük sahəsində hüquqpozmaların, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarısının vaxtında alınması və gömrük xidmətində əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi məqsədilə hədəflərin idarə olunması sistemi və mobil qruplar yaradılıb",** - deyən Gömrük Komitəsinin sədri əlavə edib ki, bunlarla yanaşı, quru, hava və dəniz yolları ilə daşınan mal və nəqliyyat vasitələrinin yoxlanılması məqsədilə dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində Azərbaycan Respublikası Avropa ölkələri sırasında öndəgedən ölkələrdən biri olaraq bütün gömrük sərhəd-keçid məntəqələrində ən müasir tipli zəruri avadanlıqlar quraşdırılıb. O vurğulayıb ki, bu avadanlıqlar vasitəsilə malların idxalı və ixracı zamanı ölkəmizə gətirilən və aparılan, eyni zamanda, ölkə ərazisində tranzit daşınan yüklərin millimetr ölçüdə müəyyənləşdirilməsi təmin edilir.

**"Əminliklə bildirmək istərdim ki, ölkəmizdə narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı təşkilati-hüquqi, institusional tədbirlər həyata keçirilməkdədir. Mövcud tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi də bu istiqamətdə daim prioritetlərini müəyyənləşdirir və mübarizə tədbirlərini gücləndirir. Məhz görülən bu tədbirlər nəticəsində 2018-ci il ərzində gömrük orqanları tərəfindən 24 narkoqrup aşkar edilib, ümumi çəkisi 1 ton 193 kiloqram olan narkotik maddələr dövriyyədən çıxarılıb, 2019-cu ilin üç ayı ərzində isə 16 narkoqrup barəsində istintaq hərəkətləri aparılıb, ümumilikdə 520 kiloqram narkotik maddələr tutularaq saxlanılıb",** - deyə gömrük general-leytenantı əlavə edib.

Səfər Mehdiyev diqqətə çatdırıb ki, Dünya Gömrük Təşkilatının ölkəmizdə təsis edilmiş Regional Tədris Mərkəzi, Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində mütəmadi olaraq narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə istiqamətində regional və beynəlxalq səviyyədə tədbirlər keçirilir.

**"Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzində narkotik vasitələrin aşkarlanmasında istifadə olunan xidməti axtarış itlərinin təlimi həyata keçirilməkdədir. Bu sahədə qabaqcıl təcrübəmiz və səmərəli fəaliyyətimiz nəzərə alınmaqla, Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinə Dünya Gömrük Təşkilatının Regional Mərkəzi statusu verilib",** - deyən Səfər Mehdiyev diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının digər dövlətlərlə gömrük işi sahəsində imzaladığı ikitərəfli beynəlxalq sənədlərə əsasən bir sıra dövlətlərin gömrük orqanlarına xidməti axtarış üzrə təlim keçmiş itlər hədiyyə edilib və narkotiklərin aşkarlanmasında yüksək nəticələr əldə olunub.

Səfər Mehdiyev XXXVI beynəlxalq konfransın narkotiklərlə mübarizə sahəsində gələcək prioritetlərin müəyyən olunmasına, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəyinə əminliyini bildirib.

* * *

ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer ölkəmizdə yenicə fəaliyyətə başlamasına baxmayaraq, xalqımızın yüksək qonaqpərvərliyinin qısa müddətdə onda böyük məmnunluq doğurduğunu ifadə edib.

Diplomat bildirib ki, Azərbaycan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransa (IDEC) yüksək səviyyədə ev sahibliyi etməklə bu mühüm məsuliyyətin öhdəsindən uğurla gəlib. O, konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və aidiyyəti şəxslərə və qurumlara minnətdarlığını bildirib.

Narkomanlığın və narkotik vasitələrin qanunsuz dövriyyəsinin cəmiyyətdə ciddi fəsadlara yol açdığını diqqətə çatdıran diplomat bu sahədə uğurlu mübarizədə beynəlxalq əməkdaşlığın önəmini xüsusi vurğulayıb. Qeyd edib ki, Azərbaycan bu istiqamətdə beynəlxalq əməkdaşlığa mühüm töhfələr verir.

Səfir bildirib ki, ABŞ-ın etibarlı tərəfdaşı olan Azərbaycan 2002-ci ildən Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatlarda fəal iştirak edir, həmin missiyanın dəstəklənməsi üçün fəal logistik dəstək verir. Bu töhfələr narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə də mühüm rol oynayır. Azərbaycan bu dəstəyi ABŞ ilə yanaşı, digər ölkələrə də göstərir.

Səfir Örl Litzenberqer qeyd edib ki, mühüm geosiyasi məkanda yerləşən Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi ölkədə digər sahələrlə yanaşı, iqtisadiyyatın və ticarətin inkişafına da əhəmiyyətli töhfə verib. Azərbaycan dövlətinin rəhbərliyi yeni müasir ticarət yollarından narkotik vasitələrin dövriyyəsində istifadə edilməsinin qarşısını almaq üçün qətiyyətli tədbirlər həyata keçirir. Bu mübarizədə birgə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

Diplomat konfransın narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsi, yeni tərəfdaşlıqların qurulması baxımından əhəmiyyətini vurğulayaraq, tədbirin işinə uğurlar arzulayıb.

Açılış çıxışlarından sonra birgə foto çəkdirilib.

Sonra satış-sərgisinə baxış keçirilib.

Daha sonra Beynəlxalq Konfrans işini regional işçi qrupların müzakirəsi və seminar sessiyaları ilə davam etdirib.

Qeyd edək ki, beynəlxalq konfransın ölkəmizdə keçirilməsi barədə ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının təklifi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Tədbirlə bağlı bəzi təşkilati məsələlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli Sərəncamına əsasən işçi qrupu yaradılıb və konfransın Tədbirlər Planı təsdiq edilib.

Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan beynəlxalq konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib.

Aprelin 17-dək davam edəcək Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılacaq, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar veriləcək.

## Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Bakı Konfransı qabaqcıl təcrübənin öyrənilməsi baxımından mühüm platformadır





Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda (IDEC) 115 ölkədən 432 nümayəndə iştirak edir. Tədbirə Azərbaycan tərəfindən 100-dən çox nümayəndə qatılıb. Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində mötəbər platforma olan bu konfransda dünya təcrübəsini bölüşmək, informasiya mübadiləsi aparmaq, bu mübarizədə istifadə olunan qabaqcıl texnologiyalarla tanışlıq imkanı yaradılır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov aprelin 15-də Bakıda işə başlayan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans çərçivəsində təşkil olunan mətbuat konfransında deyib.

Baş nazirin müavini vurğulayıb ki, ötən il ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası beynəlxalq konfransın ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycana müraciət edib. Bu məsələ ilə əlaqədar Prezident İlham Əliyevə müraciət olundu. Belə tədbirlərin Azərbaycanda keçirilməsini daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı bu konfransın ölkəmizdə təşkili ilə bağlı göstəriş verdi və Prezidentin Sərəncamı ilə Təşkilat Komitəsi yaradıldı. Bundan sonra Nazirlər Kabinetinin qərarı ilə tədbirə hazırlıqla əlaqədar işçi qrupu yaradıldı.

Konfransın təşkilinə müxtəlif dövlət qurumları ilə yanaşı, könüllülərin də cəlb olunduğunu diqqətə çatdıran Baş nazirin müavini Bakı konfransı çərçivəsində gənclərlə görüşlərin, eləcə də digər tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Narkotiklərlə Mübarizə Assosiasiyasının rəhbərinin səlahiyyətlərini icra edən Uttam Dillon bildirib ki, bu gün narkotik vasitələrin qanunsuz dövriyyəsi cəmiyyəti narahat edən əsas problemlərdən biridir. Dünyada bu dövriyyəni həyata keçirən mütəşəkkil cinayətkar qruplara qarşı qəti mübarizə aparılır. Təmsil etdiyim Narkotiklərlə Mübarizə Assosiasiyası bu işə mühüm töhfə verir. Bu sahədə uğur qazanmaq üçün bütün ölkələrin birgə əməkdaşlığı mühüm əhəmiyyət daşıyır. Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın (IDEC) da bu baxımdan əhəmiyyəti böyükdür.

Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirən U.Dillon ölkə ərazisinə narkotik vasitələrin əsasən cənub istiqamətindən daxil olması ilə bağlı suala cavabında deyib: **"Bu məsələ də Bakı konfransının qarşısında duran əsas mövzulardan biridir. Konfransın məqsədi mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, bu mübarizənin yolları və üsullarını müxtəlif ölkələrin nümayəndələri ilə birlikdə müzakirə etməkdir. Bütün bu məsələlər konfrans çərçivəsində təşkil olunacaq regional sessiyalarda müzakirəyə çıxarılacaq".**

Qonaq qeyd edib ki, Narkotiklərlə Mübarizə Assosiasiyası narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsindən əziyyət çəkən ölkələrə və bölgələrə yardım göstərməyə çalışır. Bu məqsədlə kiçik regional koalisiyaların yaradılması ilə birgə tədbirlərin görülməsi və fəaliyyətin əlaqələndirilməsi böyük səmərə verir. Çünki narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı səmərəli mübarizə yalnız birgə əməkdaşlıq şəraitində həyata keçirilə bilər.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində respublikamızda gömrük sistemi qabaqcıl ölkələrdə tətbiq olunan avadanlıqla təchiz edilib. Azərbaycan dünyada yeganə dövlətlərdən biridir ki, bütün sərhəd-keçid məntəqələrində gömrük sistemində xüsusi rentgen qurğuları və modern avadanlıq quraşdırılıb. Amma buna baxmayaraq, narkotik vasitələrin tranzit keçirilməsi və idxalı hər zaman gözlənilən risk kimi ölkədən və marşrutdan asılı olmayaraq diqqətlə nəzarətdən keçirilir. Azərbaycan dövləti və Prezident İlham Əliyev bu sahəyə xüsusi diqqət göstərir.

Səfər Mehdiyev qeyd edib ki, hökumətin bütün qurumları ilə yanaşı, gömrük sərhəd-keçid məntəqələri tam müasir avadanlıqla təchiz olunur. Biz bu layihələri Narkotiklərlə Mübarizə Assosiasiyasının və ABŞ-ın dəstəyi ilə həyata keçiririk. Dövlətimizin başçısının bu sahəyə diqqət və qayğısının nəticəsində ən müasir rentgen qurğuları və avadanlığı ölkəmizə gətirilərək sərhəd-keçid məntəqələrində quraşdırılır. Eyni zamanda, potensialın gücləndirilməsi, Komitənin Kinoloji Mərkəzinə Dünya Gömrük Təşkilatının Regional Mərkəzi statusunun verilməsi və s. tədbirlər uğurlu bəhrəsini verir. Təsadüfi deyil ki, il ərzində aşkarlanan 1,7-1,8 ton narkotik vasitənin demək olar ki, yarısı sırf bizim təlim keçmiş xüsusi təyinatlı itlərimiz tərəfindən müəyyənləşdirilib.

Xatırladaq ki, aprelin 17-dək davam edəcək Bakı konfransında narkotiklərlə mübarizə üzrə müzakirələr aparılacaq, Azərbaycan paytaxtından dünyaya yeni mesajlar veriləcək.

## Polşa jurnalında Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi ilə bağlı məqalə buraxılıb

Polşanın "Decydent" jurnalında Azərbaycanın 10 milyonuncu sakini barədə jurnalist Yasek Potoskinin məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, yazıda 10 milyonuncu sakin - Mehriban Həsənova barədə məlumat verilir. Həmçinin yazıda oxuculara Azərbaycanın inkişafı, dünyadakı rolu və regiondakı əhəmiyyəti, həyata keçirdiyi layihələr barədə qısa məlumatlar təqdim olunur.

## Bakı Dövlət Universitetində "Mən öz gələcəyimi seçirəm" mövzusunda seminar keçirilib



Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans çərçivəsində aprelin 15-də Bakı Dövlət Universitetində "Mən öz gələcəyimi seçirəm" mövzusunda seminar təşkil edilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev çıxış edərək konfransın keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamından bəhs edib.

Müasir dövrün sosial bəlalarından olan narkomaniya və onun fəsadları, gətirdiyi faciələr barədə fikirlərini bildirən rektor ölkəmizdə narkomanlığa qarşı mübarizə üzrə beynəlxalq standartlara uyğun qanunvericilik tədbirlərindən və bu istiqamətdə beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərindən danışıb. E.Babayev narkomanlığın yayılması ilə mübarizənin gücləndirilməsi, onun qarşısının alınması üçün maarifləndirici tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb. O, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın yayılmasının qarşısının alınması, narkomanlığa düçar olanların müalicə edilməklə sağlam həyata qaytarılması tədbirlərinin önəmini qeyd edib.

Sonra Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin San-Dieqo şəhərində fəaliyyət göstərən əməkdaşı, IDEC Konfransının "Tələbatın Azaldılması Təhsil Proqramı"nın təşkilatçısı Rokuelle Herron mühazirə oxuyub. O, mühazirəsində Amerika Birləşmiş Ştatlarında narkomaniya ilə bağlı vəziyyətin ağırlığından, onun qurbanlarının ilbəil artmasından bəhs edib. Məlum olub ki, əgər 1990-cı illərdə ABŞ-da 10 min gənc bu bəladan əziyyət çəkirdisə, 2007-ci ildə bu rəqəm 35 min, 2018-ci ildə 72 min olub. 2019-cu ildən isə bu göstəricinin 80 min olacağı gözlənilir.

Tədbirdə Kolumbiyanın Narkotiklərlə Mübarizə İdarəsinin Boqotada fəaliyyət göstərən əməkdaşı Bobi Lukas narkomaniyanın qarşısının alınması yolları və üsulları barədə məlumat verib.

Seminar tələbələrin, müəllimlərin çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# Naxçıvanda müşavirə keçirilib






Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib: Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün ərazisi fiber-optik xətlə, stasionar və mobil rabitə xidməti, eləcə də sürətli internetlə təmin edilmişdir. Bu gün muxtar respublikanın ən ucqar kəndində yaşayan insanlar da dünyada və ölkəmizdə gedən prosesləri izləyir, fikir və münasibətlərini bildirirlər. Təhsil müəssisələrinin yeni texnologiyalar və internetlə təminatı isə gənclərin hazırlıq səviyyəsini və innovasiyalara çıxış imkanlarını xeyli yüksəltmişdir. Ötən illərdə muxtar respublikada innovasiyaların tətbiqi sahəsində yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı, Ağbulaq Kənd Turizm İstirahət Bölgəsinin yaradılması, müxtəlif festivalların keçirilməsi və digər tədbirlər uğurlu startap layihələrindəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək deyib ki, muxtar respublikada innovativ inkişafa dayanan təhsil siyasəti həyata keçirilir. Təhsilin inkişafına dair yeni fərman və sərəncamlar imzalanır, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı elmin nəzəriyyə və təcrübə ilə inteqrasiyasına, təhsilə fərqli yanaşma mexanizminin formalaşmasına, qarşılıqlı və çoxşaxəli fəaliyyət planlarının hazırlanmasına və ən əsası dövlət kadr siyasətinin inkişafına səbəb olub. Bu Sərəncam səriştəyə əsaslanan insan resurslarını müasirləşdirmək, səmərəli əməkdaşlıq mexanizmi yaratmaq, müasir infrastruktur qurmaq, dünya təhsil standartlarına uyğun təhsil modeli formalaşdırmağa şərait yaradıb. Ötən dövrdə təhsil sahəsində hamiliklə bağlı kompleks tədbirlər, seminar və konfranslar, təcrübələr həyata keçirilib, təhsil yarmarkalarında pedaqoji profilli ixtisasların məzunlarının işlə təminatına tələbat artıb.

Surə Seyid muxtar respublikanın mədəniyyət, gənclərlə iş, səhiyyə, sosial siyasət, iqtisadi inkişaf, ekologiya, yeni texnologiyalar, memarlıq və mühəndislik, nəqliyyat, beynəlxalq əlaqələr, kütləvi informasiya vasitələri və ordu quruculuğu sahələrində hamiliklə bağlı görülən işlərdən geniş bəhs edib, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının kadr hazırlığı sistemində akademik hazırlığın təcrübə ilə əlaqəsinin vəhdətinə və yetişən kadrların gələcək karyera imkanlarına ən etibarlı təminat olduğunu bildirib. Qeyd olunub ki, Sərəncam yeni dövrün tələbi olan startap anlayışının əhatə etdiyi bütün sahələrdə innovasiyanı və dayanıqlı inkişafı əsas götürür.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov deyib ki, muxtar respublikada əhalinin bütün təbəqələri müasir rəqəmsal xidmətlərdən istifadə imkanı əldə ediblər. Hazırda muxtar respublikanın telekommunikasiya əlaqələrini təmin edən 1600 kilometrdən artıq optik kabel xətləri mövcuddur. Fiber optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron xidmətlərin inkişaf etdirilməsinə, o cümlədən elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin inkişafına təkan verib. Naxçıvanın beynəlxalq transavrasiya fiber optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən "Elektron hökumət" portalı yaradılıb. "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunur. Bundan əlavə, 150-yə yaxın dövlət və ictimai təşkilata elektron poçt ünvanları və domen adları verilib, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilib. Hazırda muxtar respublika üzrə 236 elm və təhsil müəssisəsi, 17 muzey İnteraktiv Təhsil Sisteminə qoşulub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Distant Təhsil Mərkəzində fiziki məhdud imkanlı uşaqların sayı 24, audio kitabxanadan mütəmadi istifadə edənlərin sayı isə 375 nəfərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Rabitə və Yeni Texnologiyalar Nazirliyi səylərini daha da artırıb. Çin Xalq Respublikasının Huawei şirkəti ilə 5 illik razılaşmaya uyğun olaraq 2016-cı ildən başlayaraq tələbələrin şirkətin Şenjen şəhərindəki təlim mərkəzində 2 həftəlik təcrübə keçmələri təmin edilir. Həmçinin "Naxçıvan" Universitetində şirkət tərəfindən yaradılan "İnformasiya Kommunikasiya Texnologiyaları Mərkəzi" fəaliyyət göstərir. Naxçıvan Dövlət Texniki Kollecində isə nazirlik tərəfindən 5 fənn kabinəsi yaradılıb. Ötən ilin oktyabr ayında Naxçıvan Dövlət Universitetində "İdeyadan Biznesə" ümumrespublika startap müsabiqəsi təşkil edilib, universitetin "Nuhland" komandası ölkə üzrə milli seçimdə 3-cü yerə layiq görülüb. Bu ilin mart ayında isə "Azərbaycanın startapı" Milli turuna hazırlıq məqsədilə "İdeyadan Biznesə" startap layihəsinin Naxçıvan turunun təşkil edilməsi ilə bağlı Tədbirlər Planı hazırlanıb.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev aidiyyəti üzrə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Naxçıvan Muxtar Respublikasında son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksək ixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir. "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə 3 ali, 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 98 ixtisas və 1 lisey 31 təşkilata hamiliyə verilmişdir. Bu Sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqə genişlənmiş, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət etmişdir.

Ali Məclisin Sədri deyib: Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 42 ixtisas üzrə magistr, 15 ixtisas üzrə rezident, 11 ixtisas üzrə əlavə təhsil, Naxçıvan Müəllimlər İnstitutunda 8 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistr, "Naxçıvan" Universitetində 15 ixtisas üzrə bakalavr, 6 ixtisas üzrə magistr, Naxçıvan Tibb Kollecində 8, Naxçıvan Dövlət Texniki Kollecində 8, Naxçıvan Musiqi Kollecində 10, peşə liseyi və məktəblərində isə ümumilikdə 22 ixtisas üzrə kadr hazırlanır. Kadr hazırlığı aparılan ixtisaslar muxtar respublikanın tələbatına tam uyğunlaşdırılmışdır. Hər il muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrini 2200-dən artıq məzun bitirir. Peşə liseyi və məktəblərində isə hər il 3 mindən çox gənc müxtəlif peşələrə yiyələnir. Daim yeniləşən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə hazırlanmasını tələb edir. Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Yeni Sərəncamla 3 ali və 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 109 ixtisas və 1 lisey müvafiq 36 təşkilata hamiliyə verilmişdir. Əlavə olaraq "İdeyadan başlanğıca" devizi ilə hami təşkilatlarla hamiliyə verilən təhsil müəssisələri arasında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin - startapların həyata keçirilməsi nəzərdə tutulub.

Ali Məclisin Sədri aid təşkilatlara tapşırıqlar verərək deyib: Müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Müasir əmək bazarında praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara tələbat artır. Buna görə də hami təşkilatlar ali və orta ixtisas təhsili müəssisələri ilə birlikdə kadr hazırlığına diqqəti artırmalı, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə etməli, kadrların ixtisas üzrə təcrübi bilik və bacarıqlarının artırılmasına nail olmalıdırlar. Bu səbəbdən hami təşkilatlar və hamiliyə verilən qurumlar arasında görüşlər intensiv xarakter daşımalıdır. Hami təşkilatlarla hamiliyə verilən ixtisaslar arasında əməkdaşlıq yeni ideya mübadiləsinə və innovasiyaların yaranmasına gətirib çıxara bilər. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

Ali və orta ixtisas təhsili müəssisələrinə tapşırılır ki, hamiliyə verilən təşkilatlarla birgə tələbələrin startapla bağlı biliklərinin formalaşması, layihələrin hazırlanması, biznes planların qurulması və təqdimatı ilə bağlı maarifləndirici təlimlərin keçirilməsini təmin etsinlər. Hamiliyə verilən təhsil müəssisələri tələbələrin innovasiya mühitinin formalaşması və innovativ təkliflərinin həyata keçirilməsi üçün ictimai əsaslarla işləyən İnnovasiya Laboratoriyalarını (InnoLab) yaratsın. Laboratoriyalar tələbələrin layihələrinin hazırlanması üçün informasiya texnoloji təminat mühitini və internetdən istifadəni tam təmin etsin. Hami təşkilatlar hami ixtisasların tələbələrinin layihələrinin qəbulunu həyata keçirsin, ictimai əsaslarla yaradılan qurumlarda ekspert şurasının köməyi ilə dəyərləndirsin, müxtəlif müsabiqələr təşkil etməklə onları qiymətləndirsin. Layihələr humanitar, ictimai-siyasi, texniki, ictimai, tibb və sairə sahələr üzrə hazırlanmalı, bir və ya bir neçə nəfərdən ibarət olan komanda tərəfindən təqdim olunmalıdır. Layihələr həm qlobal, həm də yerli şəraitdə istifadə oluna biləcək sahələrə həsr edilməlidir.

Qeyd olunub ki, təqdim edilən layihələrin son məqsədi real biznesin qurulmasına, xidmətlərin, sosial servislərin təqdim edilməsinə yönəlməli və effektiv innovasiyalar üzərində qurulmalıdır. Elmi inkişafa xidmət edən layihələr daha çox informasiya texnologiyalarının nailiyyətlərini özündə əks etdirməli, ölkədə yeni əmək bazarının və təhsil iqtisadiyyatının formalaşmasına xidmət etməlidir. Ali və orta ixtisas təhsili müəssisələri hamiliyə verilən təşkilatlarla birlikdə "Startap Naxçıvan" hərəkatı çərçivəsində startapçılar üçün yerli və beynəlxalq səviyyəli təlimlər təşkil etməlidir.

Naxçıvan Dövlət Universitetində təlimlərin keçirilməsində Distant Təhsil Mərkəzinin imkanlarından istifadə edilməlidir. Hami təşkilatlar uğurlu layihələrin investorlara təqdim edilməsində investor və startapçı münasibətlərin qurulmasında əlaqələndirici qismində iştirak etməlidir. Hami təşkilatlar qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi ilə əlaqədar startap görüşləri və müzakirələrinin təşkil olunmasına, qaliblərə mükafatların təqdim edilməsinə, layihələrin birbaşa maliyyələşməsinə nəzarət və onların investorlara və müxtəlif fondlara təqdiminə köməklik göstərməlidirlər. Layihələr təqdim olunduqdan sonra Startap günləri keçirə, həmçinin respublika və beynəlxalq səviyyəli müsabiqələrə qatıla bilərlər.

Ali Məclisin Sədri deyib: Hami təşkilatlar və hamiliyə verilən təhsil müəssisələri yeni formalaşmaqda olan startapçıları, startap komandalarını əmək bazarının spesifik xüsusiyyətləri ilə tanış etməli, startapçılar arasında əlaqələri gücləndirmək məqsədilə hər il "Startap festivalı" keçirməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi aid təşkilatların təklifləri əsasında layihələrə, o cümlədən startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılmasını təmin etməlidir. Təhsil Nazirliyi ali məktəblərin professor və müəllim heyətləri ilə yeni dərslik və dərs vəsaitlərinin müzakirəsinə diqqəti artırmalı, Mədəniyyət Nazirliyi açıq dərslərin, ustad dərslərinin, dəyirmi masa və müzakirələrin keçirilməsini diqqətdə saxlamalı, tələbələrin mütaliəsinin, tarix və mədəniyyətimizə dair biliklərinin zənginləşməsi üçün müvafiq ixtisasların buklet, kitab və broşürlərlə təmin olunmasına köməklik göstərməlidir. Gənclər və İdman Nazirliyi Əlahiddə Ümumqoşun Ordu ilə birgə gənclərin hərbi vətənpərvərlik işini diqqətdə saxlamalı, Gənclər Fondu ilə birlikdə maarifləndirici tədbirlərin keçirilməsini təmin etməlidir. Gənclər ideya və bacarıqlarına uyğun istiqamətləndirilməli, onların ideyaları sosial şəbəkələr vasitəsilə yayılmalı, fərqlənən gənclər mükafatlandırılmalıdır.

Tapşırılıb ki, Səhiyyə Nazirliyi hami ixtisaslarla birgə elmi konfransların təşkilinə diqqəti artırsın, Tibb fakültəsi müəllimlərinin nəşr etdikləri dərs vəsaiti və dərsliklərin səhiyyə müəssisələrində müzakirələrini keçirsinlər. "Auditoriyadan xəstəxanaya" devizi altında xəstəxanalardan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Tibb kollecinin tələbələrinə cərrahiyyə prosesinin onlayn yayımını təşkil etsinlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır ki, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı işinə nəzarəti artırsın, sosial layihələrin həyata keçirilməsini davam etdirsin. Turizm Departamenti muxtar respublikanın turizm potensialının internet üzərindən tanıdılması və təbliğində tələbələrin iştirakını, onların yaradıcı baxışından səmərəli istifadəni təmin etsin.

Müşavirədə Ali Məclis Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinə tapşırılıb ki, "Naxçıvan Muxtar Respublikasında startapın inkişaf perspektivləri" adlı respublika konfransının keçirilməsini təmin etsin. Həmçinin "Kəşf et, öyrən, yarat!" devizi altında startap günlərinin keçirilməsi təmin edilsin. Startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılması və fəaliyyətinə nəzarət, startapla bağlı məlumatlandırıcı buklet, broşür və kitabçaları hazırlasın.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.

Sonda "Startap layihələri və innovativ inkişaf" filminə baxış olub.

# Elmar Məmmədyarov: Moskva görüşü faydalı və substantiv keçdi




Aprelin 15-də Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Moskva görüşü faydalı və substantiv keçdi.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan jurnalistlərinə müsahibəsində xarici işlər naziri Elmar Məmmədyarov söyləyib.

Nazir qeyd edib ki, əvvəlcə Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirləri üçtərəfli görüş keçirdilər. **"Çox faydalı görüş oldu. İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq"**, - deyə nazir bildirib.

Elmar Məmmədyarov vurğulayıb ki, görüşdə bəzi təkliflər səsləndirilib: **"İndidən bu təklifləri açıqlamaq istəmirəm. Bu, həm Rusiya, həm digər həmsədrlər, həm də Azərbaycan və Ermənistan tərəfinin təklifləridir. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik".**

Nazir görüşün yekun bəyanatında qeyd olunduğu kimi, Azərbaycan və Ermənistan jurnalistlərinin Bakıya, Yerevana və Dağlıq Qarabağa səfərlərinin təşkili məsələsinə toxunub: **"Bu, çox maraqlı fikirdir ki, erməni və azərbaycanlı jurnalistlər Yerevana, Bakıya, Dağlıq Qarabağa səfərlər etsinlər. Bundan əlavə, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması barədə razılığa gəldik. Ümid edirəm ki, Ermənistan tərəfi buna hörmətlə yanaşacaq. Sakinlərə öz torpaqlarında işləməyə imkan yaradacaqlar".**

# Gömrük Komitəsinin sədri Ümumdünya Gömrük Təşkilatının baş katibinin müavini ilə görüşüb



Aprelin 15-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ümumdünya Gömrük Təşkilatı (ÜGT) baş katibinin müavini Rikardo Trevino Çapa ilə görüşüb.

Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş Bakıda işə başlayan Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində keçirilib. S.Mehdiyev ÜGT ilə Azərbaycan gömrük xidməti arasında hər zaman səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu deyib, əməkdaşlığın hazırkı vəziyyətindən razılığını ifadə edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən davamlı islahatlardan bəhs edən komitə sədri, eyni zamanda, gömrük sahəsində şəffaflığın təmin olunması istiqamətində atılan addımlardan və gömrük orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsindən söhbət açıb. Vurğulayıb ki, Azərbaycan gömrüyü bu gün dünya gömrük ailəsinin etibarlı üzvüdür.

ÜGT-nin bir sıra beynəlxalq və regional tədbirlərinə Azərbaycanın ev sahibliyi etdiyini diqqətə çatdıran S.Mehdiyev, eyni zamanda, Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda iştirakına görə qonağa təşəkkürünü bildirib.

ÜGT baş katibinin müavini Rikardo Trevino Çapa Azərbaycana səfərindən, eləcə də Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransda iştirakından məmnunluğunu bildirib. Təmsil etdiyi təşkilatda Azərbaycan Gömrük Xidmətinin rolunun yüksək qiymətləndirildiyini vurğulayan qonaq ÜGT ilə Azərbaycan gömrüyü arasında əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə və birgə fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən görüşünə dair məlumat yayıb




Aprelin 15-də Moskva şəhərində Rusiya tərəfinin təşəbbüsünə əsasən, Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında görüş keçirilib. Görüşdə, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən görüşünə dair məlumat yayıb.

Məlumatda qeyd edilir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə başlıca məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Bu xüsusda, cari il martın 29-da Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin Vyanada baş tutmuş görüşünün nəticələri diqqətə alınmaqla, münaqişə üzrə danışıqlar prosesinin irəli aparılması perspektivləri nəzərdən keçirilib.

Görüşdə, həmçinin münaqişə zonasında gərginliyin azaldılmasına dair tədbirlər, habelə humanitar sahədə mümkün birgə fəaliyyət üzrə fikir mübadiləsi aparılıb. Nazirlər KİV nümayəndələrinin qarşılıqlı səfərləri də daxil olmaqla, insanlararası təmasların qurulması istiqamətində praktiki addımların atılmasına razılıqlarını ifadə ediblər. Görüş iştirakçıları yaxın gələcəkdə təmasların davam etdirilməsini razılaşdırıblar.

Görüş nəticəsində Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin və ATƏT-in həmsədrlərinin birgə bəyanatı qəbul edilib.

# YAP Qax rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib





Aprelin 13-də Yeni Azərbaycan Partiyası (YAP) Qax rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. Tədbir iştirakçıları və qonaqlar öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər. Qax şəhər Mədəniyyət evində keçirilən konfransda Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, millət vəkili Azər Kərimli, Qax rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev iştirak ediblər.





Dövlət himninin səsləndirilməsindən sonra konfransı giriş sözü ilə açan YAP Qax rayon təşkilatının sədri Nizami Əhmədov ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasəti, gənclər üçün yaradılan əlverişli şərait barədə danışıb. Natiq YAP Qax rayon təşkilatının Gənclər Birliyinin üzvlərinin də ölkəmizin, o cümlədən rayonun ictimai-siyasi həyatında fəal iştirak etmələrindən məmnunluğunu bildirib, birliyin fəaliyyətini yüksək qiymətləndirib.

Sonra YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri Elbrus Tağıyev ötən konfransdan keçən dövr ərzində görülən işlərlə bağlı hesabat verib. Qeyd olunub ki, hazırda YAP Qax rayon təşkilatının tərkibindəki 4656 partiya üzvünün 2002 nəfəri gənclərdir.

YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Elvin Həsilov, Qax bələdiyyəsinin sədr müavini Günel Məmmədova və gənc partiya fəalı Nəcməddin Sofiyev hesabat məruzəsi ətrafında çıxış edərək, görülmüş işləri qənaətbəxş qiymətləndiriblər.

Konfransda çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində gənclərimizin qazandıqları nailiyyətlərdən danışıb. Qeyd olunub ki, bu gün gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərir, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

Çıxışında YAP-ın gənclərə öz potensiallarını nümayiş etdirmək üçün hər cür şərait yaratdığını da vurğulayan millət vəkili deyib ki, partiyamızın sıralarında yüksək intellektli gənclər birləşiblər və onlar üzərlərinə düşən vəzifələri yerinə yetirməyə qadirdirlər.

Çıxış edən Milli Məclisin deputatı Azər Kərimli bildirib ki, Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Millət vəkili əlavə edib ki, Yeni Azərbaycan Partiyasının sıralarında birləşən gənclər də ictimai-siyasi proseslərdə fəal iştirak edirlər.

Qax rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin, həmçinin gənclərlə bağlı qəbul edilən müxtəlif Dövlət proqramlarının əhəmiyyətini vurğulayıb. Qax rayonunda həyata keçirilən tədbirlərdən də danışan Musa Şəkiliyev rayon gənclərinin quruculuq prosesində fəal iştirak etdiyini diqqətə çatdırıb. O, YAP Qax rayon təşkilatı Gənclər Birliyinə fəaliyyətində uğurlar arzulayıb, gəncləri hər zaman təşəbbüskar olmağa çağırıb.

Sonra təşkilati məsələlərə baxılıb. YAP Qax rayon təşkilatı Gənclər Birliyinin 27 nəfərdən ibarət Şurası və 9 nəfərdən ibarət İdarə Heyəti seçilib. Həmçinin Elvin Həsilov YAP Qax rayon təşkilatının Gənclər Birliyinin sədri seçilib. Bundan başqa, YAP Gənclər Birliyinin V konfransına nümayəndələr seçiliblər.

# "Kaspi" Təhsil Mərkəzi aprel döyüşçülərinin xatirəsini yad edib



Dünən "Kaspi" Tədris Mərkəzinin təşkilatçılığı ilə aprel döyüşçülərinin xatirəsi anılıb. SİA-nın məlumatına görə, ədəbi-bədii gecə Azərbaycan Dövlət Musiqili Teatrında keçirilib. Tədbirdə dövlət rəsmiləri, millət vəkilləri, aprel döyüşçülərinin ailə üzvləri iştirak ediblər.

Qeyd edək ki, səhnələşdirilən tamaşalar "Kaspi" Tədris Mərkəzinin şagirdləri tərəfindən məharətlə icra edilib. Dərin vətənpərvərlik ruhuna köklənmiş tədbirdə bir-birindən maraqlı və təsirli tamaşalar göstərilib. Şagirdlərin rol aldıqları səhnələr tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.





Sonda "Kaspi" Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva çıxış edərək aprel döyüşlərinin əhəmiyyətindən danışıb. O, şəhid olmuş əsgərlərin ailə üzvlərinə üz tutaraq şəhid olan qəhrəman əsgərlərimizin heç bir zaman unudulmayacaqlarını bildirib: **"Mən torpaqlarımızın tezliklə azad olunacağına əminəm. Biz şəhidlərin ruhu qarşısında baş əyirik. Bütün şəhid ailələri bilməlidir ki, biz hər zaman qəhrəman şəhidlərimizi qəlbimizdə, xatirələrimizdə yaşadacağıq".**

# YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib





Aprelin 13-də Yeni Azərbaycan Partiyası (YAP) Salyan rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyev xatirə parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad ediblər.

Konfransda YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin sədri hesabat məruzəsi ilə çıxış edib.

Konfransda çıxış edənlərdən Milli Məclisin deputatı Şahin İsmayılov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, YAP Gənclər Birliyinin sədr müavini Ramin Məmmədov və başqaları Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar.

Konfransda daha sonra təşkilati məsələlərə baxılıb. Fazil Sabir oğlu Məhərrəmov YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib.

Konfransda YAP Salyan rayon təşkilatı Gənclər Birliyinin yeni tərkibdə Şurası və İdarə Heyəti seçilib. Konfransda Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin konfransına nümayəndələr seçiliblər.

# YAP Şuşa rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Şuşa rayon təşkilatı Gənclər Birliyinin V konfransı keçirilib. "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin qərargahında keçirilən konfransda əvvəlcə Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbirdə YAP Şuşa rayon təşkilatı Gənclər Birliyinin fəaliyyətinə həsr olunmuş fotoslayd təqdim olunub.

Konfransı giriş sözü ilə açan Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirib ki, bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu gənclər siyasəti həyata keçirilir. Onun sözlərinə görə, bu siyasətin təməlində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs dayanır. **"Görülən işlərin nəticəsidir ki, bu gün gənclərimizin səsi mötəbər beynəlxalq kürsülərdən gəlir. Bütövlükdə gənclər cəmiyyətimizdə aparıcı rol oynayırlar"**, - deyən natiq əlavə edib ki, gənclərin fəallığı, onların intellekti, bilik və bacarıqları respublikamızın inkişafına töhfələr verir.

Tədbirdə hesabat məruzəsi ilə çıxış edən YAP Şuşa rayon təşkilatı Gənclər Birliyinin sədri Yapon Hacıyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətindən, bu siyasətin hazırda Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, vətənpərvərlik nümunəsi göstərən Azərbaycan gəncliyindən söz açaraq əldə olunmuş nailiyyətlərin əhəmiyyətini vurğulayıb.

Konfransda çıxış edən YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev, Milli Məclisin deputatı Elman Məmmədov, YAP Şuşa rayon təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Fətəliyeva, Şuşa Humanitar Kollec üzrə 20 saylı ərazi ilk partiya təşkilatının sədri Könül Hüseynova və başqaları ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurlarından danışıblar.

Sonra YAP Şuşa rayon təşkilatının Gənclər Birliyinin şurasına 9, İdarə Heyətinə isə 5 nəfərdən ibarət üzv seçilib. Ülvi Heydərov təşkilatın Gənclər Birliyinin sədri, Əmirxan Qarayev və Elmir Rzayev isə sədrin müavinləri seçiliblər.

Sonda YAP sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilib.

# Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının Gənclər Birliyinin V hesabat-seçki konfransı olub






Yeni Azərbaycan Partiyası (YAP) Ucar rayon təşkilatının Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Ucar şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən konfransda 69 ərazi ilk partiya təşkilatından 200 nümayəndə iştirak edib.

İştirakçılar əvvəlcə Heydər Əliyev parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsini dərin ehtiramla yad ediblər.

YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva tədbirdə çıxış edərək bildirib ki, təşkilat öz sıralarında 4010 üzvü birləşdirir. Onların 1120 nəfəri gəncdir. Gənclərin isə 781-i qadındır. Təşkilatın Gənclər Birliyinin üzvlərindən 567-si ali, 289-u orta ixtisas, 264-ü orta təhsillidir. Onlardan 563-ü təhsil, 101-i mədəniyyət, 123-ü səhiyyə sahələrində, 120-si idarəetmə orqanlarında, 126 nəfəri isə digər idarə və müəssisələrdə çalışır.

Sonra YAP Ucar rayon təşkilatının Gənclər Birliyinin sədri Ceyhun Qəhrəmanov hesabat məruzəsi ilə çıxış edib.

Məruzə ətrafında çıxışlarda Ümummilli Liderimiz Heydər Əliyevin Vətən qarşısındakı xidmətlərindən danışılıb. Qeyd olunub ki, müasir tariximizin böyük bir mərhələsi müdrik dövlət xadiminin adı ilə bağlıdır. Azərbaycan dövlətçiliyinin müasir tarixinə Öz adını əbədi həkk edən bu dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi yazılıb. Heydər Əliyevin siyasi fəaliyyətinin ən böyük zirvəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi müasir müstəqil Azərbaycandır. Hazırda ölkəmizin dünya birliyində söz sahibinə çevrilməsinin əsasını məhz Ulu Öndər Heydər Əliyev qoyub. İftixarla vurğulanıb ki, bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru iri addımlarla inamla irəliləyir.

Çıxışlarda, həmçinin YAP Ucar rayon təşkilatının Gənclər Birliyinin fəaliyyəti geniş təhlil edilib. Azərbaycanda, o cümlədən Ucarda sosial-iqtisadi sahələrdə qazanılan uğurlardan danışılıb, bu sahədə Yeni Azərbaycan Partiyasının, eləcə də onun sıralarında aparıcı qüvvə olan gənclərin rolu yüksək qiymətləndirilib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvləri - ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxışlarında ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar.

Sonra təşkilati məsələlərə baxılıb. Konfransda YAP Ucar rayon təşkilatının Gənclər Birliyi Şurasına 19, İdarə Heyətinə isə 11 nəfər seçilib. Ülvi Qəhrəmanzadə YAP Ucar rayon təşkilatının Gənclər Birliyinin sədri, Vüqar Səlimov və Yusif Məmmədov sədrin müavinləri seçiliblər. Bundan başqa, YAP Gənclər Birliyinin ümumrespublika konfransında iştirak edəcək iki nümayəndə də müəyyənləşdirilib.

# Məhkəmə-Hüquq Şurasında "qaynar xətt" yaradılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı bu sahədə islahatların keyfiyyətcə yeni mərhələyə keçməsini şərtləndirib, məhkəmə-hüquq orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması üçün "yol xəritəsi" olub. Fərmanda ədalət mühakiməsinin səmərəliliyinin artırılması və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə çoxsaylı mütərəqqi tədbirlərlə yanaşı, məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması barədə konkret tapşırıq və tövsiyələr müəyyənləşdirilib.

Eyni zamanda, Fərmanda hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün Məhkəmə-Hüquq Şurasında "qaynar xətt"in yaradılması məsələsi qoyulub.

Məhkəmə-Hüquq Şurasından AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar həmin məsələlər üzrə Şuraya birbaşa və maneəsiz müraciət etmək imkanlarının yaradılması məqsədilə zəruri avadanlıqla təchiz edilmiş "Qaynar xətt" əlaqə mərkəzi yaradılıb və ilkin olaraq (012) 310-22-77 nömrəli telefon xətti ilə fəaliyyətə başlayıb. "Qaynar xətt" əlaqə mərkəzinə bütün iş günlərində iş vaxtı ərzində müraciət etmək mümkün olacaq. "Qaynar xətt" əlaqə mərkəzinə daxil olan və icraata götürülən aidiyyəti müraciətlər üzrə Məhkəmə-Hüquq Şurası tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə hərtərəfli, tam və obyektiv araşdırmaların aparılması təmin ediləcək.

# Alternativ icra mexanizmlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübə öyrənilir




Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmandan irəli gələn vəzifələrin Ədliyyə Nazirliyi tərəfindən təxirəsalınmadan icrasına başlanılaraq, konkret tədbirlər müəyyən edilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dövlətimizin başçısının Fərmanında məhkəmə qərarlarının icrasının effektivliyinin artırılması, “Elektron icra” informasiya sisteminin tətbiqinin genişləndirilməsi, alternativ icra mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi barədə verilmiş tapşırığa uyğun olaraq, Ədliyyə Nazirliyinin rəhbər şəxslərindən və hakimlərdən ibarət nümayəndə heyəti Litvada tanışlıq səfərində olub.

Səfər zamanı “Elektron məhkəmə” və “Elektron icra” informasiya sistemlərinin tətbiqi, özəl icra qurumlarının fəaliyyəti ilə bağlı Litvanın təcrübəsi ilə tanışlıq olub. Həmçinin bu ölkənin ədliyyə naziri vəzifəsini müvəqqəti icra edən nazirin müavini Zydrunas Plytnikas, Ali Məhkəmənin sədri Rimvydas Norkus, Ali İnzibati Məhkəməsinin sədri Ramunas Qadliauskas, Milli Məhkəmə Administrasiyasının direktoru Reda Moliene, Ədliyyə Nazirliyinin Özəl İcra Qurumları üzrə Departamentinin rəisi Jolita Sinkeviciute və digər rəsmi şəxslərlə görüşlər keçirilib, Litvanın məhkəmə sistemi, icra xidmətinin işinin spesifik xüsusiyyətləri, məhkəmə və icra sahəsində istifadə olunan elektron sistemlərin funksionallıqları barədə təqdimatlar keçirilib, səmərəli müzakirələr aparılıb.

Görüşlərdə hər iki ölkədə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar barədə faydalı fikir və təcrübə mübadiləsi aparılıb, bu sahədə əldə olunan nailiyyətlərə və tətbiq olunan yeniliklərə qarşılıqlı maraq göstərilib.

Nümayəndə heyətinə Litvada özəl icra qurumlarının fəaliyyətinin təşkili və icra məmurlarına Ədliyyə Nazirliyinin keçirdiyi müsabiqə əsasında müvafiq lisenziyaların verilməsi, icra məmurlarının köməkçiləri institutu, icraata daxil olan icra sənədlərinə və şikayətlərə baxılması, onların təmin olunması mexanizmi, icra hərəkətlərinin elektron sistem vasitəsilə həyata keçirilməsi barədə ətraflı məlumat verilib, bu sahədə qanunvericilik aktları ilə tanış olunub.

# Prezident İlham Əliyev Ulu Öndərin siyasətinə sadiq qalaraq xalqı daha firavan gələcəyə doğru aparmaqdadır



**Əhliman Tağıyev**

**Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının şura üzvü, Milli Məclisin İnsan hüquqları komitəsinin eksperti**

Azərbaycanın ictimai-siyasi həyatı üçün böyük əhəmiyyət kəsb edən 2018-ci ilin 11 aprelində keçirilən prezident seçkilərindən 1 il ötür. Bu seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini qazanan cənab İlham Əliyevin yenidən Prezident seçilməsi növbəti dönəmlərdə də sabit və təhlükəsiz məmləkət modelinin qorunub saxlanması, dövlət idarəçiliyinin daha modern və çevik formada həyata keçirilməsini təmin etmək baxımından keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Onun rəhbərliyi ilə əvvəlki illərdə böyük zəhmət və səylər nəticəsində əldə olunmuş fundamental uğurların verdiyi imkanlardan istifadə edərək xalqın istək və arzularına, maraqlarına uyğun olan daha güclü və qüdrətli dövlət formalaşdırılması üçün dərin və köklü islahatlara start verildi. Aparılan islahatların mahiyyəti və fəlsəfəsi insan amili üzərində fokuslanmaqla sözün əsl mənasında vətəndaş məmnunluğunun təmin edilməsini hədəfləyən və artıq danışıq leksikonumuza sürətlə daxil olan “Sosial Dövlət” prinsip və anlayışlarının real həyatda tətbiqini özündə ehtiva edir. Tam yəqinliklə söyləmək olar ki, seçkilərdən ötən 1 il ərzində bu prinsip və anlayışlar böyük dərəcədə həyata vəsiqə alaraq özünü təsdiqləməklə sonrakı illərdə həyata keçiriləcək daha böyük islahatların konturlarını müəyyənləşdirmiş oldu.

Böyük minnətdarlıq hissi ilə qeyd olunmalıdır ki, müasir Azərbaycanın möhtəşəm uğurlarının, ölkədə hökm sürən sabitliyin, iqtisadiyyatın bütün sahələrindəki inkişafın dinamik xarakter alması birbaşa Heydər Əliyev siyasətinin təntənəsidir. Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial-mədəni həyatda tərəqqinin 30 ildən artıq dövrü Ulu Öndərin adı ilə bilavasitə bağlıdır. Onun Azərbaycana rəhbərlik etdiyi dövr çoxəsrlik dövlətçilik tariximizin ən şanslı səhifələrindəndir. Bu mərhələ Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, sabitlik və tərəqqi, iqtisadi inkişaf üçün möhkəm təməlin yaradılması, milli-mənəvi yüksəliş, hər bir fərdin özünü layiqli vətəndaş olaraq dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunmuşdur. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz tarixi xidmətlər haqqında təhlil apararkən, haqlı olaraq Onun müstəqil, suveren, azad Azərbaycan dövlətini qurması faktı birmənalı şəkildə təsdiqlənir. Bu mənada xalqımız Onu müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu hesab edir. Bu tarixi gerçəklik birbaşa Ulu Öndər Heydər Əliyevin fövqəladə xidmətlərinin nəticəsidir və bu xidmətlər kənarında Azərbaycanın müasir tarixi təsəvvür belə oluna bilməz. Ümummilli Liderimiz Heydər Əliyevin gərgin əməyi və qətiyyəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.

2003-cü ilin payızında cənab İlham Əliyevin hakimiyyətə gəlməsi ilə ölkəmiz keyfiyyətcə yeni, müasir dövlət quruculuğu prosesinə daxil oldu. Əvvəlki illərdə yaradılmış möhkəm əsaslar üzərində Azərbaycan heç zaman olmadığı qədər yüksək templərlə, dinamik şəkildə inkişaf edərək iqtisadi, sosial, hüquqi islahatlara geniş rəvac verdi. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada diqqəti cəlb edəcək inkişaf, dirçəliş, yenilik hiss edilməsin. Ölkəmizin imkanlarının artması dövlət və cəmiyyət həyatının bütün sahələrinə təsir göstərir. Prezident İlham Əliyev Ulu Öndərin siyasətinə sadiq qalaraq xalqı daha firavan gələcəyə doğru aparmaqdadır. İlk gündən verdiyi vədləri tutmağı bacaran dövlət başçısı ölkəyə rəhbərliyi dövründə İslahatçı Lider kimi tanınmış, möhkəm siyasi iradəsi və prinsipiallığı sayəsində neft strategiyasının, əfsanələrin reallığa çevrilməsini hədəfləyən möhtəşəm transmilli enerji və nəqliyyat layihələrinin reallaşmasında müstəsna xidmətləri ilə Azərbaycanın yeni intibah dövrünün müəllifi kimi tariximizdə şərəfli bir səhifə açmışdır.

Ötən 15 ilin bəzi mühüm yenilikləri fonunda bunu daha aydın görmək mümkündür. Ümummilli Liderin neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri istifadəyə verilmiş, “Ümid”, “Abşeron” kimi perspektivli qaz yataqları kəşf olunmuş, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xətti açılmış, respublikamız orbitə 3 peyk buraxmış, ölkə əhəmiyyətli yol-nəqliyyat infrastrukturu müasirləşdirilmişdir. Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində olduqca mühüm rola malikdir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızın bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etməkdədir.

Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin olunması, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna və regionların inkişafına doğru istiqamətləndirilməsi, güclü insan kapitalının formalaşdırılması iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir.

Ötən illərdə əldə olunan uğurlar, ilk növbədə ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş Dövlət proqramlarının reallaşdırılmasını təmin etmişdir. Bu müddət ərzində büdcə gəlirləri 10 dəfədən çox artmış, sosial-iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü daha qabarıq şəkildə büruzə vermişdir.

Son 15 ilin statistik göstəriciləri ölkə iqtisadiyyatının dinamik inkişafını və dayanıqlılığını bir daha təsdiq edir: ötən dövrdə ölkənin strateji valyuta ehtiyatları 27 dəfə artaraq 45 mlrd. ABŞ dollarına çatmışdır, ümumi daxili məhsul ( ÜDM) real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 3,8 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,6 dəfə, tikinti 3,4 dəfə, turizm 14,2 dəfə artmış, iqtisadiyyata 225 mlrd. ABŞ dolları həcmində investisiya yatırılmışdır. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur. İqtisadiyyatın bütün funksional sahələri üzrə optimal nəticələr əldə olunmuş, regionların sosial-iqtisadi inkişafına, biznes mühitinin liberallaşdırılmasına istiqamətlənmiş dövlət siyasətinin davam etdirilməsi istər ümumi daxili məhsulun, istərsə də strateji ehtiyatların artımına imkan yaratmışdır.

Bütün bunlar Azərbaycanın yeni qlobal iqtisadi və siyasi çağırışlara adekvat olaraq islahatları davam etdirmək, idarəetmə sistemini çevik, şəffaf və səmərəli mexanizmlər əsasında formalaşdırmaq, milli iqtisadiyyatı yeni şəraitə uyğunlaşdırmaq istəyini bariz təcəssüm etdirmişdir. Göstərilən faktorların nəticəsi olaraq “Doing Business” hesabatına əsasən Azərbaycan 2018-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun “Qlobal Rəqabətədavamlılıq” hesabatında isə 34-cü pillədə qərarlaşmışdır. Eyni zamanda, respublikamız “Siyasətçilərə ictimai etimad” adlanan indikator üzrə dünyada 20-ci pilləyə yüksəlmişdir ki, bu da xalqın iqtidara böyük etimadını səciyyələndirən mühüm göstəricidir.

Yetərincə olan faktlara əsaslanaraq əminliklə deyə bilərik ki, Azərbaycan xalqı cənab İlham Əliyevin simasında özünün sabit, firavan və bütövlükdə təhlükəsiz gələcəyinə səs vermişdir. Bu gələcək - qüdrətli və yenilməz AZƏRBAYCANDIR.

# Heydər Əliyev Mərkəzində türkiyəli tarixçi İlbər Ortaylının mühazirəsi olub







Heydər Əliyev Mərkəzində türkiyəli tarixçi, professor İlbər Ortaylının “Qafqaz tarixi” mövzusunda mühazirəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, professor İlbər Ortaylı Avropa qitəsinin mühüm regionu olan Qafqaz ərazisində qədim dövrdə yaradılmış dövlətlər, burada yaşayan yerli əhali, eləcə də müxtəlif dövrlərdə əraziyə pənah gətirmiş, köçürülmüş tayfalar, etnik qruplar haqqında məlumat verib, eramızdan əvvəl mövcud olmuş Urartu dövlətinə dair erməni iddialarına qarşı tutarlı faktlarını diqqətə çatdırıb.

Mühazirəçi qeyd edib ki, istər Azərbaycan, istər Türkiyə ərazisində müxtəlif vaxtlarda həm sığınacaq axtaran xalqlar, həm də işğalçı dövlətlərin ərazisindən gələn xalqların nümayəndələri məskunlaşıb. Təsadüfi deyil ki, müasir dövrdə də hər iki dövlət qaçqın qəbul edir. İstər Azərbaycan, istərsə də Türkiyə ərazisində özəlliyini qoruyub saxlamış etnik qruplara rast gəlmək mümkündür. Ermənilər isə Qafqaza əsasən XVIII-XIX əsrlərdə köçürülüb.

Tarixçi alim çoxmillətli Qafqazda oğuz türkcəsinin geniş yayıldığını bildirib, əlifbanın bir neçə dəfə dəyişməsi məsələsinə aydınlıq gətirib, Mirzə Fətəli Axundzadənin əlifba islahatı layihəsini, türk dilinə məxsus səslərin ərəb qrafikası ilə yazmağın mümkünsüzlüyünü qeyd edib. O, Mahmud Kaşğarinin “Divani lüğət-it-türk” əsərinin türklərin qədim dili, tarixi və mədəniyyəti haqqında məlumat verən dəyərli mənbə olduğunu söyləyib.

Türkiyəli professor Qafqazın müsəlmanlaşması məsələsinə aydınlıq gətirərkən, türklərə İslam dininin qılınc gücünə qəbul etdirilməsi barədə fikirlərin yanlış olduğunu, insanların bu dini zaman-zaman könüllü qəbul etdiklərini bildirib.

**“Qafqaz bizim üçün bir tarixdir”**, - deyən tarixçi alim Qafqazda səlcuqlar hakimiyyətini, XIX əsrdə Rusiya işğalına - 1828-ci il Türkmənçay müqaviləsinə qədər Azərbaycan dövlətlərinin hakimiyyətinin olduğunu, bu gün isə Qafqazda Azərbaycan Respublikasının mövqeyini vurğulayıb.

**“Dünyada eyni dili danışanlar eyni yerdə yaşamasalar da, mənən, ruhən birdir”**, - deyən professor İlbər Ortaylı Ulu Öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə haqqında “Bir millət, iki dövlət” müdrik kəlamını xatırladıb.

Qeyd edilib ki, Nizami Gəncəvi farsca yazsa da, türk idi. İranda yaşayan Məmmədhüseyn Şəhriyarın Azərbaycan dilində yazdığı “Heydərbabaya salam” poeması onun mənən xalqına bağlılığını, onunla həmrəyliyini göstərir. Biz bir mədəniyyətik. Bu mədəniyyətin içində rənglər var, əsasında isə türklərin tarixi dayanır.

Mühazirəni Türkiyənin Azərbaycandakı səfiri, Milli Məclisin deputatları, tarixçi alimlər, ziyalılar, tələbələr, ictimaiyyət nümayəndələri dinləyiblər.

Türkiyəli professor tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıb.

İlbər Ortaylı 1947-ci ildə anadan olub. Ankara Universitetinin siyasi biliklər fakültəsini və dil, tarix, coğrafiya fakültəsinin tarix bölməsini bitirib. Magistr təhsilini Çikaqo Universitetində alıb. 1974-cü ildə doktorluq dissertasiyası müdafiə edib, 1979-cu ildə dosent, 1989-u ildə isə professor olub. Vyana, Berlin, Paris, Prinston, Moskva, Roma, Sofiya, Kembric, Oksford və Tunis universitetlərində dərs deyib, seminarlar aparıb. Türkiyənin bir sıra televiziya kanallarında müxtəlif proqramlar hazırlayıb.

2005-2012-ci illərdə Topqapı Saray Muzeyinin rəhbəri olub. Bir çox elmi məqalələrin müəllifidir.

# “Jurnalistlər binası”nın qarşısında keçirilən ağacəkmə aksiyası zamanı 300 ağac əkilib



“Bu yaz özün bir təbiət yarat” devizi ilə keçirilən yaz ağacəkmə kampaniyası çərçivəsində növbəti aksiya aprelin 14-də “Jurnalistlər binası”nın qarşısındakı ərazidə təşkil olunub.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aksiya zamanı nazirliyin tinglik sahələrində yetişdirilən müxtəlif cinsli 300 meyvə və şam ağacı əkilib.

Ağacəkmədə jurnalistlərlə yanaşı, nazirliyin əməkdaşları da iştirak ediblər.

Xatırladaq ki, kütləvi informasiya vasitələri nümayəndələrinin təşəbbüsü ilə payızda keçirilmiş aksiya çərçivəsində həmin ərazidə 200-dən çox ağac əkilmişdi.



# “Azərsu” Beyrut Beynəlxalq Su Həftəsində təmsil olunub

“Azərsu” ASC Livanda keçirilən VII Beyrut Beynəlxalq Su Həftəsində təmsil edilib.

ASC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Beynəlxalq Su Həftəsi çərçivəsində təşkil olunan tədbirlərdə “Azərsu” ASC-nin sədri, Dünya Su Şurası İdarə Heyətinin üzvü Qorxmaz Hüseynovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti iştirak edib.

2008-ci ildən indiyədək keçirilən Beyrut Su Həftəsi Aralıq dənizi və digər ölkələrlə birgə əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Həftə çərçivəsində bir sıra tədbirlər, o cümlədən Dünya Su Şurası idarə heyətinin 68-ci iclası keçirilib. İclasda Şuranın növbəti 3 illik Fəaliyyət Planı, 8-ci Dünya Su Forumunun son hesabatları, 9-cu Dünya Su Forumuna hazırlıq işləri və digər məsələlər müzakirə olunub.

“Azərsu” ASC-nin sədri Q.Hüseynov Azərbaycanda içməli su təchizatı və sanitariya xidmətləri barədə məlumat verib. Bildirib ki, “Azərsu” ASC suyun mənbələrdən götürülməsi, emalı, nəqli və satışını təşkil edir, tullantı sularının təmizlənməsini təmin edir. Eyni zamanda, su və sanitariya sahəsində layihələndirmə və inşaat işlərini həyata keçirir. 2013-cü ildən Dünya Su Şurasına üzv olan ASC bu təşkilatla sıx əməkdaşlıq edir.



İclasda təşkilati məsələlərə də baxılıb. Dünya Su Şurasına 9 yeni üzvün qəbul olunması müzakirə edilib və müsbət qərar qəbul olunub. Onlardan 2-si - “Caspian Business Management and Consulting” və “Ekol Mühəndislik Xidmətləri” şirkətləri Azərbaycandan quruma yeni üzv seçilib.

“Azərsu” ASC-nin sədri Dünya Su Şurasının prezidenti Lui Fuşon, Beynəlxalq Su Resursları Asossiasiyasının fəxri prezidenti Patrik Lavarde, Mərakeşin İçməli Su və Enerji üzrə Milli Agentliyinin direktoru Abdelrahim El Hafidi, Türkiyə Su İnstitutunun prezidenti Ahmet Saatçi, Portuqaliya Su və Tullantı Su Xidmətləri Asossiasiyasının prezidenti Rui Qodinho, Su üzrə Beynəlxalq Ofisin icraçı direktoru Erik Tardieu, Koreya Su Forumunun meneceri Jiyeon June Lee və digər rəsmi şəxslərlə qarşılıqlı maraq doğuran məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparıb.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Azərbaycanın rayonlarında yetişdirilən məhsulların ixrac coğrafiyası genişlənir

*Cari ilin sonunadək respublikamızdan 19 xarici ölkəyə 25 ixrac missiyasının həyata keçirilməsi, 11 beynəlxalq sərgidə milli şirkətlərin vahid ölkə stendi ilə təmsil olunması nəzərdə tutulub*




Azərbaycanın yeni şəraitdə iqtisadi inkişafla bağlı qarşıya qoyduğu əsas hədəflərdən biri aqrar sektorda istehsal həcmlərinin artırılması və bu əsasda ixrac imkanlarının genişləndirilməsi ilə bağlıdır. Ölkəmizin qarşıya belə bir məqsəd qoyması isə heç də təsadüfi deyil. Məlum olduğu kimi, respublikamızda aqrar sektorda böyük ixrac potensialı var. Davamlı olaraq hərtərəfli dövlət dəstəyi göstərilən fermerlərin fəallığı sayəsində regionlardan kənd təsərrüfatı məhsullarının ixrac həcmlərini genişləndirməklə respublikamız valyuta daxilolmalarını artırmaq və sosial-iqtisadi inkişafın ardıcıllığını təmin etmək məqsədi güdür.

### "MADE İN AZERBAİJAN" BRENDİNİN YARADILMASI VƏ SƏMƏRƏLİ TƏŞVİQ MEXANİZMİNİN İŞƏ SALINMASI ÖLKƏMİZDƏN İXRACIN GENİŞLƏNMƏSİNƏ ƏLVERİŞLİ ZƏMİN YARADIB

Azərbaycan qeyri-neft sektoru üzrə, o cümlədən də ölkənin bölgələrindən ixracın genişləndirilməsi ilə bağlı qarşıya qoyduğu hədəflərə çatmaq üçün lazım olan hər şeyi edir. Məlumdur ki, dünyanın əksər inkişaf etmiş ölkələrində ixrac bir sıra səmərəli vasitələrlə dəstəklənir və təşviq edilir. Müasirləşməni strateji hədəf seçən Azərbaycan da məhz qabaqcıl ölkələrin təcrübəsindən bəhrələnməyə çalışır. Respublikamızda ixracın səmərəli təşviqi mexanizminin işə salınması ixracın genişlənməsində mühüm rol oynayır. Prezident İlham Əliyevin ixracın təşviqinin stimullaşdırılması ilə bağlı imzaladığı müvafiq sənədlərə uyğun olaraq "İxrac təşviqinin ödənilməsi qaydası", "İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı" və "İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar" təsdiq olunub. İxrac təşviqi şamil olunan malların siyahısına bal, xurma, nar, qovrulmuş fındıq kimi kənd təsərrüfatı məhsulları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə-tərəvəz, mürəbbə və cemlər, turşular, spirtli içkilər və şərab, mineral sular və şirələr, unlu qənnadı məmulatları, habelə dəri məmulatları, ipək parçalar və xalçalar kimi digər məhsullar daxil edilib. Həmin məhsulların növündən asılı olaraq sahibkarlara ixrac etdikləri qeyri-neft məhsullarının gömrük dəyərinin 3-6 faizi həcmində təşviq vəsaiti ödənilir.

Ölkəmizin ixrac imkanlarının genişləndirilməsi baxımından "Made in Azerbaijan" brendinin yaradılması da böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmanla təsdiqlənən Qayda xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsini və ödənilmə mexanizmini müəyyən edir. Dövlət başçısının Fərmanı ilə təsdiqlənən Qaydada müəyyən olunmuş dəstək tədbirlərindən istifadə etmək hüququna isə Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracatçısı olaraq Azərbaycan Respublikasında vergi ödəyicisi kimi uçota alınmış fiziki və hüquqi şəxslər malikdirlər.

Azərbaycanda indiyədək dünyada özünü doğruldan səmərəli təşviq mexanizminin işə salınması həm ixracatçı sahibkarlara böyük dəstəkdir, həm də bütövlükdə milli maraqlarımıza xidmət edir. Brendlərdən asılı olmayaraq, ölkəyə, onun keyfiyyətə nəzarət sistemlərinə inamın yaradılması əldə oluna biləcək ən yaxşı uğurdur. Dövlətin bu məsələyə dəstəyi və qayğısı Azərbaycanda dövlət-özəl sektor-vətəndaş əməkdaşlığının bariz nümunəsidir. Burada həmçinin sahibkarların məsuliyyəti məsələsi də böyük aktuallıq kəsb edir. Mütəxəssislərin qənaəti belədir ki, "Made in Azerbaijan" brendlərinə yaranacaq etimad istehsal olunan məhsulun keyfiyyətindən, beynəlxalq standartlara cavab verməsindən, müştərilərə göstəriləcək xidmətlərin yüksək səviyyədə olmasından və güclü marketinq fəaliyyətindən çox asılıdır.

Ölkəmizdə ixracın genişləndirilməsinə nail olmaq üçün yaradılan möhkəm hüquqi baza öz növbəsində praktiki müstəvidə genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə zəmin yaradıb. Bunun təsdiqi olaraq vurğulamaq yerinə düşər ki, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə təbliği məqsədilə ixrac missiyaları təşkil edilir, beynəlxalq sərgilərdə yerli məhsullarımız vahid ölkə stendində nümayiş olunur, xarici ölkələrə ticarət nümayəndələri təyin edilir və ticarət evləri yaradılır, sahibkarlara ixrac təşviqi ödənilir, ixracatçılara məsləhət xidməti göstərilir, ixtisaslaşmış assosiasiyaların yaradılması dəstəklənir. Bir neçə istiqamət üzrə məhsul istehsalçıları və ixracatçıları assosiasiyaları yaradılıb, mənşə sertifikatının verilməsi sadələşdirilərək müddəti üç gündən bir günə endirilib.

### İXRACIN GENİŞLƏNDİRİLMƏSİ MƏQSƏDİLƏ REALLAŞDIRILAN TƏDBİRLƏR ÖZ MÜSBƏT NƏTİCƏSİNİ VERİR

Respublikamızda ixracın genişləndirilməsinə nail olmaq üçün hüquqi və praktiki müstəvidə həyata keçirilən tədbirlər öz nəticəsini verir. Aqrar sektorda və sənayedə ixracın genişlənməsi bunu bir daha təsdiqləyir. Son illərdə respublikamızın ixracı əsasən qeyri-neft sektorunda, o cümlədən də regionlarda aqrar sektorda yetişdirilən məhsullarının hesabına genişlənir. 2018-ci ildə dövlət dəstəyi hesabına xarici ölkələrə 11 ixrac missiyası təşkil edilib, bölgələrdə fəaliyyət göstərən şirkətlər xarici ölkələrdə təşkil olunmuş 11 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak ediblər. Bu tədbirlər çərçivəsində ABŞ, Almaniya, BƏƏ, Çexiya, Qətər və digər ölkələrə Azərbaycan şirkətlərinin istehsalı olan kənd təsərrüfatı məhsulları, o cümlədən də meyvə-tərəvəz, nar şirəsi, şərab, ət məhsulları, quru süd, fındıq, qənnadı məhsulları, bal, çay, həmçinin Naftalan nefti, tikinti materialları, mebel və digər məhsulların ixracına dair 50-dən çox müqavilə imzalanıb və razılaşma əldə olunub. Görülmüş tədbirlər nəticəsində 2018-ci ildə ölkəmizdən qeyri-neft ixracı 9,8 faiz, o cümlədən kənd təsərrüfatı və emalı məhsullarının ixracı 13,8 faiz, sənaye məhsullarının ixracı 6,2 faiz, xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı 56,2 faiz artıb. Bütövlükdə, ötən il Azərbaycandan 3088 çeşiddə məhsul ixrac edilib.

### CARİ İLİN YANVAR-FEVRAL AYLARINDA REGİONLARDA YETİŞDİRİLƏN MƏHSULLARIN İXRACI ARTIB

Respublikamızda qeyri-neft sektorunda ixracın təşviq edilməsi ilə bağlı tədbirlər 2019-cu ildə də davam etdirilir. Cari ildə 19 xarici ölkəyə 25 ixrac missiyasının həyata keçirilməsi, 11 beynəlxalq sərgidə Azərbaycan şirkətlərinin vahid ölkə stendi ilə təmsil olunası, eləcə də ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyinin daha da gücləndirilməsi nəzərdə tutulub.

Cari ilin yanvar-fevral aylarında ölkənin qeyri-neft sektoru üzrə ixracı 16,5 faiz artıb. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın mart sayına dair keçirilən mətbuat konfransında İİTKM-in departament rəhbəri Ramil Hüseyn deyib.

İcmalın bu sayında göstərilir ki, iki ayda Azərbaycanın ixracı 3,2 milyard ABŞ dolları təşkil edib. Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac isə 282 milyon dollar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-fevral aylarında qeyri-neft sektoru üzrə ixrac 40 milyon dollar və ya 16,5 faiz artıb.

Ümumiyyətlə, cari ilin ilk iki ayında regionlardan meyvə-tərəvəz ixracı 76 milyon, pambıq lifi ixracı 26 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 13,5 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 4,1 milyon, pambıq ipliyi ixracı 3,7 milyon dollar təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-fevral aylarında pambıq lifinin ixracı 2,6 dəfə, alkoqollu və alkoqolsuz içkilərin ixracı 2,5 dəfə artıb.

### AZEXPORT.AZ PORTALI MƏHSULLARIN MƏRKƏZLƏŞDİRİLMİŞ QAYDADA XARİCİ BAZARLARA ÇIXIŞINI TƏMİN EDİR

Yeni şəraitdə respublikanın ixrac imkanlarının genişləndirilməsinə yönəldilən tədbirlər iki mühüm istiqamətdə reallaşdırılır. Belə ki, bir tərəfdən bütün ölkə boyu ixrac qabiliyyəti yüksək olan məhsulların istehsalı artırılır, digər tərəfdən isə həmin məhsulların mərkəzləşdirilmiş qaydada tədarükü və satış bazarlarına daha asan çıxarılması üçün optimal yollar seçilir.

Yuxarıda deyilənlər baxımından Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" 2016-cı il 21 sentyabr tarixli Sərəncamı əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən yaradılan Azexport.az portalının fəaliyyəti böyük aktuallıq kəsb edir. 2016-cı il dekabrın 20-də təqdimatı keçirilən portal Azərbaycan mənşəli məhsulların daxili və xarici istehlak bazarlarına çıxış imkanlarını artırmaq məqsədilə yaradılıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, portalın missiyası Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi və onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platforma yaradılmasıdır. Portal dünyanın ən populyar elektron satış şəbəkələri ilə inteqrasiya olunaraq Azərbaycan mallarını dünyaya sərgiləyir. Mütəmadi yenilənən, istifadəyə rahat, əlçatan, təhlükəsiz, sürətli, əlverişli olan azexport.az vasitəsilə "Made in Azerbaijan" brendi alıcılara yaxınlaşdırılır.

Azexport.az həm istehsalçılar, həm də istehlakçılar üçün böyük üstünlüklər qazandırır. Belə ki, istehsalçılar məhsulları barədə məlumatları portala inteqrasiya edə bilərlər. Eyni zamanda, istehlak bazarlarının iştirakçıları portalın xidmətlərindən, geniş məlumat bazasından bəhrələnməklə bu məhsullara çıxış imkanı qazanırlar. Azexport.az təchizat-satış zənciri üzrə bütün xidmətlərə optimal çıxış imkanları yaradır. Qısa müddətdə bir sıra milli və beynəlxalq ödəmə sistemləri, o cümlədən ölkənin aparıcı nəqliyyat-logistika şirkətləri portala inteqrasiya olunublar.

(davamı növbəti sayımızda)

**Mübariz ABDULLAYEV**

# AzerTelecom Transxəzər magistralı layihəsinin icrasına başladı

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi AzerTelecom şirkəti Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün həyata keçirdiyi "Azerbaijan Digital Hub" proqramı çərçivəsində Transxəzər layihəsinin bir həssəsi olan Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik magistral kabel xəttinin çəkilişi layihəsinə başlayıb.

Bu məqsədlə Azərbaycan tərəfdən AzerTelecom şirkəti və Qazaxıstan tərəfdən Transtelekom və KazTransCom şirkətləri arasında ümumi uzunluğu 380-400 km olacaq Transxəzər magistralının çəkilməsi ilə bağlı Konsorsium təsis edilib, birgə İşçi qrup yaradılıb, tikinti üzrə müvafiq müqavilə imzalanıb.

Layihənin icrası üçün Azərbaycan və Qazaxıstan arasında "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" dövlətlərarası Saziş imzalanıb və müvafiq olaraq Azərbaycan dövləti tərəfindən təsdiqlənib.

Mühüm strateji əhəmiyyət daşıyan bu layihənin reallaşmasına nüfuzlu beynəlxalq konsaltinq və telekommunikasiya şirkətləri olan McKinsey and Company, Detecon, Axiom, DLA Piper, Huawei, PwC kimi şirkətlər də cəlb olunub.

Transxəzər fiber-optik magistralının çəkilişi AzerTelecom şirkətinin həyata keçirdiyi "Azerbaijan Digital Hub" (ADH) proqramının bir hissəsidir. Bu proqram çərçivəsində Transxəzər fiber-optik magistralının çəkilişi Avropa ilə Asiya arasında Azərbaycandan keçməklə rəqəmsal dəhlizin yaradılmasına mühüm töhfə verəcəkdir və Azərbaycanı regionun enerji və nəqliyyat mərkəzinə paralel olaraq həmçinin Rəqəmsal Mərkəzinə (Digital Hub) çevirəcəkdir. Transxəzər fiber-optik magistralının ümumilikdə regionun fiber-optik kabel infrastrukturunun inkişafında, Qafqaz, Yaxın Şərq, Orta Asiya və Cənubi Asiya, eləcə də digər ətraf regionların yüksək sürətli internet bağlantısı və qabaqcıl rəqəmsal xidmətlərlə təmin edilməsində müstəsna rolu olacaqdır.

Bu layihənin icrası həmçinin Çinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" (BRI) layihəsinə də öz töhfəsini verəcək və Azərbaycanı "Belt and Road Initiative" (BRI) layihəsinin telekommunikasiya dəhlizinə çevirəcəkdir.

Azərbaycanın Rəqəmsal Mərkəzə (Digital Hub) çevrilməsi ölkəmizin telekommunikasiya ekosisteminin dünya standartları səviyyəsinə çatdırılması, internetin Orta və Cənubi Asiya, Yaxın Şərq, eləcə də digər ətraf regionlara verilməsində tranzit ölkə və Rəqəmsal Mərkəz olması deməkdir. Bu, həmçinin Azərbaycanın Avropa ölkələrindən Çinə qədər olan fiber-optik magistral infrastrukturu şəbəkəsində mərkəzi mövqe əldə etməsidir. Azərbaycanın "Digital Hub"a çevrilməsi ilə perspektivdə dünyanın İnternet xəritəsinə London, Frankfurt, Sofiya, İstanbul, Moskva, Amsterdam, Dubay ilə yanaşı, Bakı şəhəri də əlavə olunacaqdır. Layihə dünyamiqyaslı qlobal rəqəmsal xidmətlər təchizatçıları olan korporasiyaların (Apple, Amazon, Alibaba, Google, Facebook, Netflix və s.) Azərbaycana gəlməsi, ölkəmizin kiber-təhlükəsizliyinin yüksəldilməsi, yeni iş yerlərinin açılması, kiçik və orta sahibkarlığın inkişafı, Qafqaz, Orta və Cənubi Asiya, Yaxın Şərq və digər ətraf regionlarda yaşayan 1.8 milyard əhalinin (dünya əhalisninin 1/4-i) internet və rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsi, bu region dövlətlərinə Azərbaycandan müxtəlif rəqəmsal xidmətlərin "Made in Azerbaijan" brendi altında ixrac edilməsinə öz töhfəsini verəcəkdir.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücumdan müdafiə, VPN, FTTx, Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətləri təqdim edir.

# Azərbaycanlı rəssamın əsərləri Türkiyədə sərgilənir




Türkiyənin İzmir şəhərində Azərbaycan-Türkiyə birgə rəsm sərgisi açılıb. Konak bələdiyyəsi tərəfindən Türkan Saylan Mədəniyyət Mərkəzinin Sənət Qalereyasında təşkil olunan tədbirdə azərbaycanlı rəssam Gülnarə Muxtarova Pamuk və türk rəssam Ahmet Rüştü Doğanın əsərləri sərgilənib. 11-19 aprel tarixlərində keçirilən tədbirə ümumilikdə 32 rəsm əsəri təqdim olunub. Türk dünyasının qardaşlıq tablolarının da yer aldığı ekspozisiyada müxtəlif mövzulu sənət əsərlərini görmək mümkündür. Belə ki, azərbaycanlı rəssamın 17 əsərində "Xocalı soyqırımı", "Çanaqqala döyüşü", "Ananın duası", "Qardaşlıq", "Bakının təsviri", "Azərbaycan", türk rəssamın isə 15 əsərində sosial qeyri-bərabərlik mövzuları yer alıb.

Rəssam Gülnarə Muxtarova Pamuk tədbirin əsas məqsədinin Azərbaycanı Türkiyədə, eləcə də dünyada daha geniş tanıtmaqdan ibarət olduğunu bildirib. İki ölkə arasındakı qardaşlıq münasibətlərinin yaradıcı nəslə ilham qaynağı olduğunu vurğulayan fırça ustasının sözlərinə görə, belə tədbirlər ölkəmizlə Türkiyə arasındakı mədəni əlaqələrin daha da genişlənməsində körpü rolunu oynayır.

Qeyd edək ki, bu, azərbaycanlı rəssamın Türkiyədə keçirilən ilk sərgisi deyil. 7 il ərzində G.Muxtarovanın əsərləri müxtəlif sərgilərdə nümayiş olunub. Həmçinin azərbaycanlı rəssam bir sıra mükafatlarla təltif olunub. Onun əsərlərinin bu ilin sonunda Belçikada da sərgilənməsi planlaşdırılır.

**MÜŞFİQƏ**

# UNEC komandası Azərbaycan Super Liqasına vəsiqə qazanıb



Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) idman zalında qadın voleybolçular arasında birinci Liqa Yarışlarına yekun vurulub.

Final görüşündə UNEC və "Azərreyl" komandaları qarşılaşıblar. Maraqla və həyəcanla izlənilən oyunda UNEC komandası 3:0 hesabı ilə üstün gələrək yarışın qalibi olub. Qələbə əldə edən UNEC komandası Azərbaycan Super Liqasına vəsiqə qazanıb.

Yarışın sonunda mükafatlandırma mərasimi təşkil olunub. UNEC-in rektoru, professor Ədalət Muradov qalibləri təbrik edərək, onlara gələcək yarışlarında uğurlar arzulayıb. Azərbaycan Super Liqasına vəsiqə qazanan UNEC komandasının gücləndirilməsi istiqamətində lazımi dəstəyin davam etdiriləcəyini bildirən rektor UNEC-in növbəti mövsümdə də azarkeşlərini sevindirəcəyinə əminliyini ifadə edib.

Final mərhələsində iştirak edən Azərbaycan Voleybol Federasiyasının prezidentinin müşaviri Əbülfəz Hüseynov, UNEC-in prorektoru Mikayıl Zeynalov, idman klubunun sədri Mahmud Mustafayev, federasiyanın mətbuat katibi Şəfəq Kərimova və digər qonaqlar qaliblərə medalları təqdim ediblər.

UNEC komandasının məşqçiləri Etibar Qasımov və Sergey Titoviçdir.

**İTMİŞDİR**

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən Guryanov Əfqan Süleyman oğlunun adına verilmiş 1113039055 qeydiyyat nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 4837**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul:**
Zahid İLHAMOĞLU